www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 dekabr 2018-ci il Cümə axşamı № 273 (7162) Qiymәti 60 qəpik

**Xəbər**

**Toyuna hazırlaşan xanım məmur dəm qazından boğulub öldü**

yazısı səh.2-də

# MOSKVADAN TƏBRİK ƏVƏZİNƏ AÇIQ TƏHDİD: KREML PAŞİNYANIN BOĞAZINA ÇÖKÜR

**Rusiya yüksək çinli rəsmisi Ermənistanı ABŞ-la əlaqələrə görə təhdid elədi:** "Özünüzdə cəsarət tapın, ya da.."; işğalçı ölkə iki od arasında; yeni hökumətin qara günləri başlayır...



yazısı səh.8-də

## Əli Həsənovu hədəfə alanlar ifşa edildi - Çexiyadakı mühacir xanımdan şok faktlar

**Mətanət Əzizova:** "Vidadi İsgəndərlinin qohumlarının məzarını heç kəs təhqir etməyib"

yazısı səh.7-də

**Gündəm**

### Zindandakı və İrəvandakı mürtəd ermənilər: Bakıya yoxsa Haaqaya? - cinayət dosyesi



Robert Köçəryan və Serj Sərkisyan Ermənistanda deyil, Azərbaycanda və hətta beynəlxalq cinayət məhkəməsində məsuliyyətə cəlb olunmalıdır

yazısı səh.12-də

### Azərbaycanda peyda olan "qara maskalılar" - aksiyadırmı...

yazısı səh.3-də

### Amerika Ermənistanı Bolqarıstanın əli ilə gizli silahlandırır - iddia

yazısı səh.5-də

### Azay Quliyev Milli Platformaya seçimlərdə yol verilən ədalətsizliyi tənqid etdi

yazısı səh.9-da

### Hakerlər Avropa Birliyi diplomatlarının yazışmalarını ələ keçirib

yazısı səh.5-də

### Məmmədyarovun "Ermənistanla anlaşma əldə etdik" bəyanatının səbəbi

yazısı səh.9-da

### Kamal Kılıçdaroğlunun ASALA və FETÖ sevgisi - Azərbaycana xəyanət..?

yazısı səh.10-da

### Qoca qoyunlar, xəstə inəklər... - dövlətin qiymətli layihəsi niyə narazılıq yaradıb

yazısı səh.11-də

### Avropada yəhudi əleyhdarlığı güclənir - səbəb...

yazısı səh.10-da

### Ağır çanta, ağır dərs yükü və yorulmuş məktəbli...

yazısı səh.15-də



### Siyavuş Novruzov parlamentdəki çıxışında qəzetimizin adını niyə çəkdi - Rauf Arifoğlunun cavabı

yazısı səh.9-da



### MTN işində Əhəd Abıyev epizodu

yazısı səh.4-də



Fəzail Ağamalı

### "Söyüş müxalifəti" qarşısında susan məmurlar-deputatdan sərt açıqlamalar

yazısı səh.3-də

# Abşeronda 72 şəhid ailəsi və Qarabağ müharibəsi əlilinə mənzil verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Abşeron rayonunun Mehdiabad qəsəbəsində yeni yaşayış binalarından alınmış 72 mənzil şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə təqdim edilib.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən musavat.com-a verilən məlumata görə, bu münasibətlə keçirilən mərasim zamanı əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli vurğulayıb ki, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin mənzillə təminatı işləri ildən-ilə genişlənir.

Yeni mənzillə təmin olunanları təbrik edən V.Nəsirli növbəti ildə cari ildəkindən çox olmaqla, azı 800 mənzilin şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə təqdim olunmasının planlaşdırıldığını bildirib.

Sonra mənzillərin püşkatma qaydasında, obyektiv və ədalətli şəkildə paylanması həyata keçirilib.

❑ **DÜNYA, Musavat.com**







## Prezident aztəminatlı ailələrə birdəfəlik yardım ayırdı

**Prezident İlham Əliyev aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, 2018-ci il 28 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 100 manat məbləğində birdəfəlik yardım ödənilsin.**

Birdəfəlik yardımın maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində ünvanlı dövlət sosial yardımı və sosial müavinətlər üçün nəzərdə tutulmuş vəsaitin xərclənməmiş qalıq hissəsindən 5 milyon manat ayrılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılır ki, birdəfəlik yardımın ünvanlı dövlət sosial yardımı alan ailələrin hesablarına köçürülməsini təmin etsin.

Nazirlər Kabineti və Maliyyə Nazirliyinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Azərbaycan Çoxtərəfli Sazişə qoşuldu

**Prezident İlham Əliyev "Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üçün Beynəlxalq Beyin Mərkəzinin yaradılması üzrə" Çoxtərəfli Sazişə qoşulmaq haqqında Azərbaycan Respublikasının qanununu imzalayıb.**

"Report" xəbər verir ki, sənədlə Azərbaycan Respublikası 2010-cu il 24 sentyabr tarixində Nyu-York şəhərində imzalanmış "Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üçün Beynəlxalq Beyin Mərkəzinin yaradılması üzrə" Çoxtərəfli Sazişə Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə qoşulub.



## Yeni kəşf edilən amfibiya növünə Trampın adı verildi

**Panamada aşkar olunan, suda-quruda yaşayan amfibiyaların yeni növü ABŞ prezidenti Donald Trampın şərəfinə adlandırılıb. Musavat.com xarici mətbuata istinadən xəbər verir ki, heyvanlar aləminin kəşf olunan təzə üzvünü adlandırmaq üçün hətta xüsusi hərrac təşkil edilib.**

"The Guardian" qəzetinin məlumatına görə, hərracda yığılan pullar tropik meşələrin xilası ilə məşğul olan "Rainforest Trust charity" fonduna köçürülüb.

Hərracın gedişində saf ekoloji tikinti materiallarının istehsalı ilə məşğul olan şirkətin rəhbəri Eyden Bell onu adlandırmaq hüququnu əldə edib.

E.Bell tərəddüd etmədən amfibiyaya "Dermophis donaldtrumpi" deyə ad qoyub. Bunun üçün britaniyalı biznesmen cibindən 25 min avro ödəməli olub.

Qeyd olunur ki, balaca kor amfibiya torpağın altında yaşayır və başını quma basdırmağı bacarır. Bununla biznesmen həşəratla ABŞ prezidenti arasında bənzərlik olduğunu qeyd edib.

Bellin fikrincə, "Dermophis donaldtrumpi"nin kökü adaşının iqlim siyasəti nəticəsində kəsilə bilər.

Xatırladaq ki, bu il kəpənəklərin yeni bir növü də Donlad Trampın şərəfinə "Neopalpa donaldtrumpi" adlandırılıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**



## Toyuna hazırlaşan xanım məmur dəm qazından boğuldu

**Aviasiya Təhlükəsizlik Baş İdarəsində Buraxılış Nəzarət Xidmətinin əməkdaşı Lalə Məmmədova faciəli şəkildə ölüb.**

Unikal.org xəbər verir ki, Lalə Məmmədova dekabrın 18-də dəm qazından boğularaq ölüb.

39 yaşlı Lalə Məmmədova paytaxtın Xətai rayonu, Xocalı prospekti, N.Rəfili küçəsindəki mənzilində dəm qazının sızması nəticəsində dünyasını dəyişib.

Bakı Hava Limanının işçisi olan Lalə Məmmədova nişanlı olub. Yaxın zamanlarda toyu olacaqdı.

## İŞİD Suriyada son iki ayda 700-dək insan öldürüb - "Reuters"

● **İŞİD terrorçu təşkilatı son iki ay ərzində Suriyanın Həcin şəhəri ətrafında - İraq sərhədi yaxınlığında nəzarət etdiyi kiçik ərazidə 700-dək insanı qətlə yetirib.**

"Report" "Reuters"ə istinadən xəbər verir ki, Londonda yerləşən "İnsan hüquqlarına dair Suriya müşahidə mərkəzi" adlı qeyri-hökumət təşkilatının yaydığı məlumata görə, öldürülənlər İŞİD tərəfindən əsir saxlanılan 1350 nəfər dinc sakin və silahlılardır.

Bununla bağlı rəsmi məlumatların hələlik açıqlanmadığı bildirilir.




## Varis "2018-ci ilin yazıçısı" elan olundu




**Azərbaycan ədəbiyyatını beynəlxalq miqyasda layiqincə təmsil edən yazıçı Varis növbəti uğura imza atıb. O, Rusiyanın nüfuzlu "Rossiyskiy kolokol" ədəbiyyat jurnalının versiyası üzrə "İlin yazıçısı" elan olunaraq 2018 -ci il Rusiya ədəbi mükafatına layiq görülüb.**

Qeyd edək ki, "Rossiyskiy kolokol" hazırda Rusiyanın ən yüksək tirajla çıxan ədəbiyyat jurnalıdır (20000 nüsxə), il ərzində onun bir neçə kağız və elektron almanaxları da işıq üzü görür. Jurnal Rusiya ilə yanaşı, Almaniya, Fransa, İsrail, İspaniya, Bolqarıstan, Serbiya və s. ölkələrdə yayılır, Böyük Britaniyada isə ingilisdilli variantı çap olunur.

"Rossiyskiy kolokol"un baş redaktoru həm də "Literaturnaya qazeta"nın baş redaktoru Mixail Zamşevdir.

Yazıçımız diploma və laureat medalı ilə təltif olunub. Üzümüzə gələn il onun romanlarından biri yüksək tirajla "Rossiyskiy kolokolun kitabxanası" seriyasından çap olunacaq.

❑ **Musavat.com**

## Azərbaycanda son bir həftədə 161 əcnəbi saxlanılıb

**Son həftə ərzində Dövlət Miqrasiya Xidməti tərəfindən qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı 161 nəfər əcnəbi saxlanılıb.**

Qurumdan «Trend»ə verilən məlumata görə, onlardan 3 nəfər Daxili İşlər Nazirliyi ilə keçirilmiş tədbirlər zamanı aşkar olunub.

Saxlanılmış 4 nəfərin gəlişinin bəyan edilmiş məqsədinə uyğun olmayan fəaliyyət göstərməsi, digər 157 nəfərin isə ölkə ərazisində qanunsuz yaşadıqları müəyyən edilib.

Miqrasiya qanunvericiliyini pozan 144 nəfər barəsində inzibati qərarlar qəbul edilib, digər 17 miqrantın Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılması istiqamətində müvafiq tədbirlər görülür.



## "Ekspertlər Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün kreativ ideyalar hazırlayır" - Zaxarova

**Ekspertlər Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün kreativ ideyaların hazırlanması ilə məşğuldur.**

«Trend»in məlumatına görə, bunu "Vestnik Kavkaza"nın müxbirinin Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri zamanı dediyi "Nizamlanma üçün əsas formalaşdıracaq kreativ ideyalar tapmağa çalışacağıq" sözləri ilə bağlı sualına cavab verərkən Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

**O bildirib:** "Məsələ də ondadır ki, gələcəkdən söhbət gedirdi, yəni bu cür ideyalar hazırlanmalı və kreativ olmalıdır. Məhz bu cür kreativ ideyalar dəstəklənəcək. İndi ekspertlər bunun üzərində işləyir".

## Bakı sakinini ailə üzvlərini öldürməklə hədələyən şəxslər tutuldu

**Bakı sakinini ailə üzvlərini öldürməklə hədələyən şəxslər tutulub. "Report"un xəbərinə görə, Binəqədi rayonu, Sulutəpə qəsəbəsində yaşayan 1963-cü il təvəllüdlü Elxan Hacıyevi ailə üzvlərini öldürməklə hədələyərək ondan 25 min manat pul tələb edən şəxslər aşkarlanıb.**

Polisin əməliyyat nəticəsində Hökumə Şirinova, Şəmistan Hüseynov, Elçin Hüseynov və Raman İsmayılov tutulublar.

Fakt üzrə araşdırmalar davam etdirilir.

## Bakıda mənzildə qadın meyiti tapıldı

**Xətaidə mənzillərdən birində 66 yaşlı qadın meyiti tapılıb. «Trend»in Fövqəladə Hallar Nazirliyinin saytına istinadən məlumata görə, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olmuş məlumata əsasən, Bakı şəhərinin Xətai rayonunda 1 nəfər mənzildə köməksiz vəziyyətdə qalıb.**

Çağırış ünvanına cəlb olunmuş Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri mənzilin giriş qapısını açıb və orada aşkarlanan 1952-ci il təvəllüdlü Starikova Olqa Artyomovnanın meyitini aidiyyəti üzrə təhvil veriblər. Əməliyyat başa çatıb.

YENİ MÜSAVAT
N 273 (7162) 20 dekabr 2018

**Avropada mərkəzləşən "söyüş müxalifəti" son günlərdə yenidən fəallaşıb. Siyasi mübarizənin ən çirkin yoluna əl atan bu şəxslərə qarşı Azərbaycan tərəfdən verilən sərt təpkilərdə bəzi məmurların, hökumət tərəfdarlarının kənarda qalması, susqun mövqe sərgiləmələri yenə müzakirə mövzusudur.**



# "Söyüş müxalifəti" qarşısında susan məmurlar-deputatdan sərt açıqlamalar

## Fəzail Ağamalı: "Bu cür insanlara qarşı 4-5 nəfərin dayanması nə dərəcədə qəbuledilləndir?"

Xaricdəki Azərbaycan diasporasının bu istiqamətdəki fəaliyyəti də tənqid hədəfidir.

Parlamentin son iclasında Siyavuş Novruzov hər kəsi siyasi mübarizədə söyüş ritorikasına üstünlük verən şəxslərə cavab verməyə çağırıb. Sitat: "Biz addımımızı geri qoyduqca, bunlar bir az da gəlirlər buradakıların üzərinə. Dövlətimizin baş qurucusu haqqında olmazın təhqir ifadələr yağdırırlar. Biz niyə susmalıyıq? Biz niyə bunların cavabını verməməliyik? Bir qrup hesab edir ki, biz onların səviyyəsinə düşməməliyik. Mən bu mahnını 20 ildir bu parlamentdə eşidirəm. Söz demək istəmir, ona görə də bu bəhanə ilə sözün altından çıxmağa çalışır. Burada oturan deputatların hər birini təhqir edirlər. Ölkənin ziyalısı da, alimi də, akademiki də, deputatı da bunların cavabını verməlidir. Hər kəs öz prezidentini, ümummilli liderini qorumalıdır. Biz bunları başlı-başına buraxmışıq. Bunlar nə milli azadlıq hərəkatında, nə Azərbaycan torpaqlarının müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak ediblər, nə xalqın taleyüklü məsələlərinin həllinə qatılıblar, nə ictimai-siyasi həyatda olub, nə siyasi partiyanın tərkibində fəaliyyət göstərib. Müxtəlif ölkələrdə müxtəlif adlar altında ordan-burdan pul alıb Azərbaycana qarşı təxribatlarla məşğuldurlar".

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı "Yeni Müsavat"a açıqlamasında kifayət qədər sərt danışdı:** "Əvvəla, onu demək istəyirəm ki, Azərbaycan daha ciddi uğurlara imza atdıqda, Dağlıq Qarabağ məsələsində dövlət başçısının və cəmiyyətimizin sərt mövqeyi ortaya qoyulduqda, Azərbaycan dünya miqyasında öz nüfuzunun güclənməsi ilə bağlı ciddi addımlar atdıqda bu cür yaramazlıqlar, tərbiyəsizliklər, əxlaqsızlıqlar daha qabarıq şəkildə özünü göstərir. Birmənalı şəkildə demək istərdim ki, onların Azərbaycana heç bir bağlılıqları yoxdur. Onlar yaxşı həyat tərzi keçirmək üçün ölkəmizi sevməyən, Azərbaycana düşmən kəsilən anti-Azərbaycan qüvvələri ilə birlikdədirlər. Onların koalisiyasında yer alıblar. Onlar birmənalı şəkildə antimilli qüvvələrdir. Ona görə də hər şeydən əvvəl bunu demək istəyirəm ki, Azərbaycanın hüquq-mühafizə orqanları hərəkətə keçməlidir. Parlamentin son iclasında hörmətli Siyavuş Novruzov da bu məsələni önə çəkərək çox haqlı olaraq söylədi ki, monitorinq aparılmalıdır. Öz tərbiyələrinə uyğun şəkildə şər-böhtan yağdıranların, əxlaqsızlıq edənlərin yaşadıqları ölkələrin rəsmi orqanlarına müraciət edilməlidir. Bildirilməlidir ki, əgər Azərbaycandan sizə qarşı bu cür davranışlar nümayiş etdirilsəydi, hansı addımları atardınız? Bir müddət öncə Prezident Aparatının İctimai-siyasi şöbəsinin müdiri, cənab prezidentin köməkçisi, hörmətli Əli Həsənov söyüş kampaniyasına qarşı bütün Azərbaycan cəmiyyətini cavab verməyə səsləmişdi. Bir neçə gün bundan öncə Əli müəllim bir daha onu təkrarladı. Amma təəssüf ki, bəzi şəxslər bunu etmirlər. Diqqət edin, görün ki, Azərbaycanın siyasi arenasında, hökumətdə təmsil olunanlardan kimlər onların qarşısında dayanırlar, sözlərini deyirlər, bu cür tərbiyəsizliklərin qarşısını almaq üçün çağırışlar edirlər. Təsnifat aparsanız, hər kəsi aydın görəcəksiniz. Çox təəssüf ki, o tərbiyəsiz insanlara reaksiya bildirənlər çox azdır. Doğrudur, bu gün hakimiyyətdə təmsil olunan, hakimiyyətdən kifayət qədər üstün imkanlar qazanan məmurlar bu proseslərə mütləq qoşulmalıdırlar. Hansısa br formada bunu etməlidirlər. Cəmiyyət elə əxlaqsız insanların üzərinə kəskin fikirlərlə, onları ifşa edən arqumentlərlə getməlidir. Onların qarşısına çıxmadıqda daha da azğınlaşırlar. Kim onlara qarşı çıxırsa, başlayırlar həmin insanları əxlaqsız sözlərlə, şər böhtanlarla təhqir etməyə. Bəziləri ailəsindən, uşağından utanaraq bu cür əxlaqsızların qarşısında dayanmalı olurlar. Amma bütün cəmiyyət onlara qarşı getsə, hüquq-mühafizə orqanları konkret addımlar atsa və onlar Azərbaycan qanunları çərçivəsində cəzalarını alsalar, bu cür hallara son qoyula bilər. Azərbaycan dövlətini, onun prezidentini və ailəsini, ölkə siyasətçilərini, ziyalılarını, şəhidlərini, Mübariz İbrahimov kimi qürur mənbəyimiz olan qəhrəmanımızı təhqir edənlərə qarşı qətiyyətli mövqe nümayiş etdirməlidir. Burada artıq istisnalar yoxdur. Vahid bir mövqedən çıxış edərək bu cür əxlaqsızlara qarşı qətiyyətli mövqe nümayiş etdirilməlidir".

**Deputat "söyüş müxalifəti"nə qarşı çıxanların azlığından da gileyləndi:** "Bu cür insanlara qarşı 4-5 nəfərin dayanması nə dərəcədə qəbuledilləndir? Bəs qalanlar? Onlar niyə danışmır? Bu dövlətin imkanlarından kifayət qədər bəhrələnənlərə üzümü tutub deyirəm ki, əzizlərim, gəlin birgə bu cür tərbiyəsizlərə qarşı mübarizə aparaq, iradəmizi birgə ortaya qoyaq, dövlətimizin, onun başçısının şərəf və ləyaqətini birgə müdafiə edək, o zaman milli-mənəvi dəyərlərimizin yanında oluruq. Belə olarsa, bu cür qanqallardan təmizlənmək mümkündür. Bunlar edilməsə, qanqal toxumu hara düşsə, onun çoxalma imkanları olur. Qanqal toxumlarının cavabını vermək üçün ciddi şəkildə hərəkətə keçməliyik".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Azərbaycanda peyda olan "qara maskalılar" - aksiyadırmı...

## Bakı küçələrində ağzına qara maska taxan insanlar çoxalır

**Fransada "sarı jiletlilər"in başladıqları etiraz dalğası digər bir sıra Avropa dövlətlərinə də sıçrayıb. Keçmiş postsovet məkanındakı respublikalarda hələ buna bənzər aksiyalar müşahidə edilmir.**





Belə bir vaxtda diqqəti Bakı şəhərində ağzında qara maska olan insanların çoxalması cəlb edir. Son vaxtlar Bakıda qara rəngli ağız maskaları taxanların sayının artdığı müşahidə edilir. Maraqlıdır ki, hökumət orqanlarının qarşısında aksiya keçirən şəhid ailələrinin üzvləri də etiraz əlaməti olaraq ağızlarını qara maskalarla örtürlər.

Şəhərdə qara rəngli maskalarla gəzənlərin sayının artması, müşahidə olunanlar Azərbaycana "qara maska aksiyası"nın gətirilməsi proyektinin əlaməti sayıla bilərmi? Məsələn, "sarı jiletlilər" kimi?

**AMİP katibi, siyasi ekspert Əli Orucov "Yeni Müsavat"a bildirdi ki, hansısa qruplar müxtəlif simvollarla etiraz aksiyaları keçirmək fikrinə düşə bilərlər. Lakin konkret olaraq şəhərdə ağzına qara maska taxmış insanların məhz belə bir proyektin tərkib hissəsi olması inandırıcı deyil:** "Hazırda həmin qara maskalar apteklərdə satışdadır. İnfeksiyadan və digər müəyyən kənar təsirlərdən qorunmaq üçün istifadə olunan adi ağ maskalar ki var, bu da onların sadəcə qara rənglilərindəndir. Soyuq havalarda dişini çəkdirən, müalicə etdirən, boğaz ağrıları və ya qripi olan insanlar indi də qara rəngli maskaları taxmağa üstünlük verirlər. Bu bir yenilik olduğu üçün ilk baxışda qeyri-adi görünə və insanlarda başqa fikirlər, mülahizələr yarada bilər. Odur ki, məncə, ölkəyə "qara maska aksiyası" gəldiyindən narahat olmağa dəyməz.

Hökumət orqanları qarşısında aksiya keçirən şəhid ailələrinin üzvlərinin də etiraz əlaməti olaraq ağızlarını qara maska ilə örtmələrinə gəlincə, bəli, bu bir etiraz formasıdır. Bu cür priyomlar etirazı daha effektli edir. Bəzən susmağa məcbur edilmək kimi halların cəmiyyətə bu formada çatdırılması diqqəti özünə cəlb etməklə yanaşı, bəzi fikirləri də çatdıra bilir. Şəhid ailəsinin üzvlərinin, ümumiyyətlə, etiraz aksiyasına vadar edilməsi hökumət və dövlət adına xoşagəlməz haldır. Bu kateqoriyadan olan insanlar dövlət qayğısı ilə hərtərəfli əhatə olunmalıdırlar. Onların haqq və hüquqları yüksək səviyyədə qorunmalıdır. Hökumət tərəfindən həlli çətin olmayan məsələ bilərəkdən belə mürəkkəbləşdirilirsə, utancverici vəziyyət aradan qaldırılmırsa, o zaman etirazın daha təsirli olmasının başqa üsullarına da əl atılacaq. İnsanlar çatdırmaq istəyir ki, onların səsini eşitmirlər, ancaq susmalarını istəyirlər".

**Ekspert qeyd etdi ki, xaricdə və daxildə təxribatçı qüvvələr ola bilər. Həmin qüvvələrə fürsət verməmək üçün sosial etirazlarla bağlı konkret və vaxtında qəti addımlar atılmalı, problemlər həll edilməli, qabaqlayıcı tədbirlər görülməlidir:** "Səsləri və etirazları rahat kabinetlərdə oturan hökumət nümayəndələrinə çatmırsa, ağızlarını qara parça ilə bağlayıb "sus" yazan şəhid ailələrinin üzvləri kimə müraciət etməlidir? Bu insanlar heç vaxt ölkəmizə qarşı hansısa layihənin tərkib hissəsi ola bilməzlər. Çünki onlar Vətən və Torpaq üçün qurbanlarını veriblər. Dövlət isə onlara öz borcunu ödəməlidir. Bunu ödəmək çox asan və mümkündür".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 273 (7162) 20 dekabr 2018

**Həbsdə olan keçmiş MTN generallarına verilən ittihamlardan biri də Daşkəsən rayonu, Qabaqtəpə-Astav yolunda körpülərin tikintisi üçün dövlət büdcəsindən ayrılmış 2 milyonun 686 min manatının ələ keçirilməsi ilə bağlıdır. Daşkəsənin icra başçısı, keçmiş deputat Əhəd Abıyev də bu məsələ ilə əlaqədar prokurorluqda dindirilib, məhkəməyə çağırılıb.**

# MTN işində Əhəd Abıyev epizodu

## Körpünün pulu necə oğurlandı...



İddia olunur ki, büdcədən ayrılan vəsait tikintini həyata keçirəcək “Design Construction” şirkətinin hesabına köçürüləndən sonra şirkətin əməkdaşı Natiq Fətəliyev pulu bankdan götürüb, icra hakimiyyəti ilə onların arasında vasitəçilik edən Yeganə Abbasovaya verib. Vasitəçilik edib, bu işi düzüb-qoşduğuna görə onun özünə də əlavə 2 min manat verib. Y.Abbasova da bankdan götürülmüş pulu bağlamada gətirib Daşkəsən Rayon İcra Hakimiyyətinin memarı Elman Məmmədova verib. Onlar ayrılandan az sonra MTN əməkdaşları E.Məmmədovu tutub MTN-ə aparıblar. Məsələdən xəbər tutan icra başçısı Əhəd Abıyev gecə saatlarında MTN-ə gəlib, öz əlaqələrindən istifadə edərək, işçisini buraxdırıb.

**Həbs olunan MTN vəzifələrindən polkovnik Füzuli Əliyev isə deyir ki, bu məsələ barədə ittihamda yazılanlar başdan-ayağa yalandır:** “Bu ittiham epizodu saxtadır, yapışdırmadır. O məsələ açıq-aşkar ”obnaliçka" idi. Guya “Design Construction” körpü tikməliydi, ona görə büdcədən tikinti üçün ayrılmış vəsait onların hesabına köçürülmüşdü. Tamamilə yalandır. Şirkət guya Daşkəsən Rayon İcra Hakimiyyəti ilə müqavilə bağlayıb. Bizim işimizə Bakı Hərbi Məhkəməsində baxılanda, şirkətin rəsmi rəhbəri Mehman Quliyevi çağırıb dindirdilər. O dedi ki, nə Daşkəsən, nə Yeganə, nə də Əhəd Abıyevi tanıyıram. Atakişi Məcidov da gəlib məhkəmədə dedi ki, Daşkəsənə sənəd aparmayıb, ömründə bu rayonda olmayıb. 686 min manat gəlib bunların əlinə haradan düşüb, bilinmir".

**F.Əliyev deyir ki, Əhəd Abıyevi dəfələrlə məhkəməyə çağırdılar, gəlmədi. Axırda da məhkəməyə teleqram göndərib, bildirdi ki, təqsirləndirilən şəxslərə qarşı heç bir şikayət və tələbi yoxdur:** “Yeganə Abbasova da gəlib dedi ki, heç nədən xəbəri yoxdur, onkoloji xəstədir. Müstəntiq çağırıb, özü yazıb-pozub, buna da qol çəkdirib. Orada nə yazıldığını da bilmir”.

### “Dövlətin pulu narkotik istifadəçilərinə etibar olunurdu”

**Təqsirləndirilən MTN polkovnikinin sözlərinə görə, “obnaliçka” əməliyyatında icra hakimiyyəti tərəfdən iştirak edən memar Elman Məmmədov əvvəllər bir neçə dəfə saxta sənəd hazırlama və istifadə etmə, vəzifə saxtakarlığı, səlahiyyətlərdən sui-istifadə və özgənin uşağını dəyişdirmə maddələri ilə məhkum olunub:** “Təsəvvür edin, başqasının uşağını dəyişdirməyə görə məsuliyyətə cəlb olunmuş belə bir adam gəlib məhkəmədə bizim üzümüzə durur”.

**F.Əliyev bildirib ki, Daşkəsən Rayon İcra Hakimiyyətinin əməkdaşı ilə bağlı məsələ MTN-in “obnaliçka” əməliyyatlarına qarşı mübarizəsi çərçivəsində həyata keçirilmişdi:** “2014-cü ilin əvvəlində rəhbərliyin göstərişi əsasında biz bu istiqamətdə mübarizəyə başladıq. Büdcəni doldurmaq mümkün olmurdu. Hərə bir yandan dağıdırdı. Bu məsələdə valyutadəyişmə məntəqələrindən də geniş istifadə olunurdu. Zərərçəkmiş var, Kamal Seyfullayev. Guya iş adamı olub, biz də ondan 2 milyon tələb edib almışıq. Nə sahibkar, kirayə qalırdı, evi də yox idi. O, ”obnaliçka" ilə məşğul olanların ağsaqqalı sayılırdı. Bunu müəyyənləşdirib tapdıq. Narkotik qəbul eləmişdi. Ona görə də səhərə qədər danışdıra bilmədik. 90-cı illərdə narkotikə görə həbs olunmuşdu. Dövlətin pulu belə adamlara etibar olunurdu, biz də bunun qarşısını almağa çalışırdıq".

Qeyd edək ki, Bakı Hərbi Məhkəməsinin hökmü ilə Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov 14 il, Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev 12 il, MTN-in digər vəzifəli şəxsləri Füzuli Əliyev 14 il, Zaur Məmmədov 10 il 6 ay, Natiq Alıyev 10 il 6 ay, Anar Şirəliyev 3 il, Eşqin Əliyev 3 il müddətinə azadlıqdan məhrum ediliblər.

Digər təqsirləndirilənlər, Əməliyyat-Texniki İdarəsinin rəisi, general-mayor Natəvan Mirvətovaya 5 il, onun idarəsinin əməkdaşı Fərhad Atayevə 3 il, Elşad Əzizova isə 3 il sınaq müddəti təyin edilməklə şərti cəza seçilib.

Sabiq MTN generallarının apelyasiya şikayəti üzrə məhkəmə dekabrın 20-də davam edəcək.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

# Bakının kabab tüstüsü azalıb

## 258 ictimai-iaşə obyektində havatəmizləyən qurğu quraşdırılıb

**Son zamanlar paytaxt ərazisində restoranların fəaliyyətinə ciddi nəzarət var. Xüsusilə də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin restoranların havanı çirkləndirməsinə qarşı sərt mübarizəsi lazımi nəticəni verməkdədir.**



Öncə məlumat üçün qeyd edək ki, prezident İlham Əliyev oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında havanı çirkləndirən məişət obyektlərinə də ciddi xəbərdarlıq edib. Prezident bildirib ki, kim tələblərə əməl etməyəcəksə, o şadlıq evlərinin və məişət obyektlərinin qapısı bağlanacaq. Dekabr ayında isə ölkə başçısı “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” fərmanda dəyişiklik edilməsi haqqında yeni fərman imzaladı.

Əsasnaməyə əsasən, nazirliyə ekoloji tələblərin pozulması ilə əlaqədar müəssisələrdə, qurğu və obyektlərdə təsərrüfat və başqa fəaliyyətlərin məhdudlaşdırılması və ya bu fəaliyyətə xitam verilməsi haqqında vəsatət qaldırmaq hüququ verilib. Dəyişikliyə əsasən, artıq ETSN məhkəməyə müraciət etmədən ekoloji tələblərin pozulması ilə əlaqədar müəssisələrdə, qurğu və obyektlərdə təsərrüfat və başqa fəaliyyətlərin dayandırılması və ya qadağan edilməsi barədə qərar qəbul edə bilər.

Lakin buna baxmayaraq, müvafiq qurğunu quraşdırmayan, havanı çirkləndirməyə davam edən restoranlar oldu. Onu da qeyd edək ki, nazirlik fərmana dəyişiklikdən əvvəl bəzi restoranların müvafiq qurğunu quraşdırmaması və bundan imtina etməsi ilə bağlı məhkəməyə müraciət etmişdi.

Bəs hazırda restoranlara nəzarət istiqamətində vəziyyət necədir?

**“Yeni Müsavat”a danışan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamentinin direktoru Ramal Bağırov bildirib ki, restoranlar bu qurğuları quraşdırmaqda davam edirlər. O, konkret olaraq hazırkı statistika barədə aşağıdakıları söylədi:**

“Bu günə olan məlumata görə, Bakı və Abşeronda 258 restoran müvafiq qurğunu quraşdırıb. Qurğunun quraşdırıldığı restoranların 220-sində nazirliyin əməkdaşları tərəfindən yoxlama aparılıb. Məlum olub ki, 217 obyektdə norma daxilində, 3 obyektdə isə normadan artıq olub. Yəni normadan artıq olmaq həm azalıb, həm də çoxala bilir. Əvvəl 4-5 obyektdə havaya atılan tüstü normadan artıq idi. Sonradan isə bunu düzəltdilər. Bu günə olan məlumatda həmin obyektlərin sayı 3-dür. Norma, misal üçün, 0.5-dirsə, bundan artıq olan zaman biz müdaxilə edirik”.

**R. Bağırov bildirib ki, indi də məhkəmə ilə iş aparırlar:** “Fəaliyyətin dayandırılması bizim tərəfimizdən həyata keçirilir. Ancaq tələb qoya bilmirik ki, qurğunu quraşdırsınlar. Bu zaman məhkəməyə müraciət edirik ki, qeyd edilən ictimai-iaşə obyektlərində müvafiq qurğular quraşdırılsın. Yəni quraşdırılmanı məhkəmə tələb edir. Qısası biz gedib, restoranda manqala qıfıl vururuq, fəaliyyəti dayandırırıq. Daha sonra isə qanuni qaydada fəaliyyətin dayandırılması və qurğunun quraşdırılması üçün məhkəməyə müraciət edirik. Hazırda da bu istiqamət üzrə işlər davam etdirilir”.

Onu da qeyd edək ki, müvafiq qurğuların quraşdırılması restorandakı manqalın böyüklüyündən asılı olaraq 5-15 min manata başa gəlir.

Müvafiq qurğunu quraşdıran restoranlarla əlaqə saxladığımız zaman öyrəndik ki, qurğuların normal işləməsi üçün tüstü bacalarının da vaxtında təmizlənməsi əsas şərtdir. Məlumata görə, qurğu quraşdırılandan sonra tüstü bacaları 2 həftə, maksimum 1 ay ərzində təmizlənməlidir. Əks halda, havaya buraxılan çirkli havanın qarşısı alınmır.

Qurğular quraşdırılmadan öncə Babək prospekti boyunca fəaliyyət göstərən restoranlardan tüstü dumanı qalxırdı. Ərazidə yaşayan sakinlərin sözlərinə görə, toy mövsümü başlayandan sonra bu tüstülərin sayı azalıb. Lakin hələ də müvafiq qurğunu quraşdırmayan ictimai-iaşə obyektləri var. Onu da qeyd edək ki, ETSN restoranlara təmizləyici qurğu quraşdırmaqla bağlı hələ bu ilin may ayında xəbərdarlıq edib.

**Nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova “Yeni Müsavat”a bildirib ki, onlar bu xəbərdarlıqları sakinlərin şikayətləri əsasında edirlər:** “Sakinlər şikayət edirlər ki, restorandan kabab qoxusu, tüstü yayılır. İnsanların xəstəsi, azyaşlı uşağı var. Hər kəs övladına istədiyi zaman kabab bişirə, ala bilmir. Bunları nəzərə almaq lazımdır. Biz də vətəndaşların şikayətləri əsasında restoranın ətrafında monitorinq aparıb, havadan nümunələr götürürük. Yəni əsas məqsədimiz havanın çirklənməsinin, insanların bununla bağlı narahat edilməsinin qarşısını almaqdır”.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 273 (7162) 20 dekabr 2018

**Rusiya mənşəli "EADaily" saytı sensasion məlumat yayıb. Saytın informasiyasına görə, Bolqarıstandan Ermənistana iki aydan çoxdur ki, silahla dolu yüklər göndərilir. İl-62 yük təyyarəsi İrəvan-Burqas-İrəvan marşrutu ilə gündə bir dəfə uçaraq burada müvafiq yükün boşaldılmasını həyata keçirir.**

# Amerika Ermənistanı Bolqarıstanın əli ilə gizli silahlandırır - iddia

## "ABŞ-ın Cənubi Qafqaz regionunda proseslərə müdaxiləsini, Ermənistana silah satmasını Azərbaycan öz xeyrinə çevirə bilər" - politoloq

Sayt silah satışının ABŞ-ın təşəbbüsü ilə baş tutduğunu və bunun Rusiya ilə Ermənistan arasındakı 100 milyon dollarlıq müqavilənin pozulması məqsədilə həyata keçirildiyini bildirir. Məlumatda son bir həftə ərzində Bolqarıstanın "Rada Airlines" hava şirkətinə məxsus İl-62 təyyarəsinin "EW-450TR" registrasiya nömrəsi altında Ermənistana uçduğu göstərilir.

Təyyarənin izləyici cihazlarını söndürməsinə rəğmən rusların naviqasiya portalı onun Ermənistandakı hərəkət marşrutunu izləməyə müvəffəq olub.

"EADaily" həmçinin İsrailin "Haaretz" qəzetinin ingilisdilli verisyasının redaktoru Avi Şarfın "Rada Airlines" şirkətinin Burqasdakı təyyarələrinin Ermənistana uçuşu barədə məlumat verdiyini xatırladır.



Bundan əlavə, türkiyəli blogger Yürük İşıq da "Flightradar 24" naviqasiya proqramının köməyi ilə 8 gündə Burqasdan Ermənistana 8 təyyarənin uçduğunu xəbər edib. Həmin təyyarələrin Türkiyə hava məkanını yandan dolanaraq İrəvanın "Zvartnots" hava limanına düşdüyü qeyd olunur.

Xəbərdə Bolqarıstanın ABŞ-ın xeyir-duası olmadan belə miqdarda silahı Ermənistana daşımasının mümkün olmadığı vurğulanır.

Gələn informasiyalarda Bolqarıstandan Ermənistana 40 ton yük göndərildiyi bildirilir. Bunların içində 1700 minaatan və onlara əlavə edilən 5 min sursatın olduğu deyilir. Əgər bu vaxta qədər 11 reysin artıq həyata keçirildiyi düşünülsə, o zaman bu rəqəm 10 dəfə artır.

Son zamanlar ABŞ-ın Qarabağ problemini həll etməyə çalışdığı, hətta Nikol Paşinyanı hakimiyyətə həm də bu məsələnin həlli üçün gətirdikləri söylənirdi. Ekspertlər hesab edir ki, Bolqarıstan üzərindən işğalçıya silah ötürülməsi barədə yayılan xəbərlər bu ümidlərin əsassız olduğunu, əslində əks prosesin getdiyini deməyə əsas yaradır.

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Yeni Müsavat"a bu barədə açıqlamasında bildirib ki, ABŞ tərəfindən Rusiyanın Ermənistandakı silah monopoliyasına son qoymaq cəhdi aydın şəkildə müşahidə olunur. Bu, ümumiyyətlə, Rusiyanın Ermənistanda təsir imkanlarını azaltmağa, bəlkə də tam bitirməyə yönəlib:** "Ermənistanın yeni hakimiyyətinin arxasında ABŞ-ın dayandığı, "demokrat" adı altında Paşinyanın hakimiyyətə xüsusi məqsədlər üçün gətirildiyi heç kəsdə şübhə doğurmamalıdır. ABŞ Qarabağ məsələsini ədalətli həll etmək fikrində deyil. Bu silahların gətirilməsi də Ermənistanın ABŞ-ın himayəsi altında gücləndirilməsinə yönəlib. Ona görə də Qarabağ məsələsinin ədalətli həllinə ümid etməyə dəyməz. ABŞ da münaqişənin dinc yolla həllində maraqlı deyil. Azərbaycan torpaqlarını hərbi yolla azad etməyə hazır olmalıdır".

**Politoloq Əhəd Məmmədli isə bildirdi ki, dünya ölkələri üzrə ABŞ-ın səfirliklərinin içində ən böyük səfirliklərdən biri Ermənistandadır. ABŞ elə-belə Ermənistanda böyük səfirlik saxlamaz. Bu o anlama gəlir ki, Ermənistan Amerika üçün çox önəmli ölkədir. Rusiyanın burnunun dibində inqilab yolu ilə qərbyönümlü güvvələr Ermənistanda hakimiyyətə gəldilər. Bu, ABŞ tərəfindən postsovet məkanında Rusiyanın nüfuzuna növbəti zərbə oldu. İndi də Ermənistanı silahlandırmağa başlayıblar:** "Düzdür, Rusiya özünü heç nə olmamış kimi aparır, amma reallıqda elə deyil. ABŞ Ermənistanı Rusiyadan qoparmaq istəyir. Bu proses çoxdan gedir. Türkiyə ilə sərhədlərin açılması mövzusu da bu məsələyə aiddir. ABŞ-ın Bolqarıstanın əli ilə Ermənistana silah satması Vaşinqtonun Qarabağ məsələsində də aktiv iştirakı anlamına gəlir. Təbii, Amerikanın Ermənistana silah satması Azərbaycan üçün mənfidir. İstənilən halda Azərbaycanın Qarabağ məsələsində irəli getməsi vacibdir. Əks halda, prosesə ABŞ-ın müdaxiləsi Ermənistanın xeyrinə olacaq. ABŞ-ın Cənubi Qafqaz regionunda proseslərə müdaxiləsini, Ermənistana silah satmasını Azərbaycan öz xeyrinə çevirə bilər. ABŞ-ın Ermənistana silah satması şübhəsiz Rusiyada qıcıq yaradacaq. Bu isə avtomatik Rusiya-Ermənistan münasibətlərində gərginlik yaradacaq. Bütün bu məqamlardan Azərbaycan öz xeyrinə istifadə edə bilər".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# Hakerlər Avropa Birliyi diplomatlarının yazışmalarını ələ keçiriblər

**Naməlum hakerlər Avropa Birliyi ölkələrinin diplomatlarının bir neçə illik elektron yazışmalarını, o cümlədən Rusiya ilə bağlı məktublaşmalarını oğurlayıblar.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu barədə "The New York Times" məlumat yayıb.

Qəzetin qeyd etdiyinə görə, xəbəri ABŞ Milli Təhlükəsizlik Agentliyinin (MTA) kibertəhlükəsizlik sahəsində ixtisaslaşan keçmiş əməkdaşları tərəfindən təsis edilən "Area 1" şirkəti də təsdiqləyib.

Firma oğurlanan məlumatların hələlik adı açıqlanmayan şəbəkədə dərc edildiyini bildirib. "Area 1"in əməkdaşları qəzetin jurnalistlərini əvvəllər diplomatik kanallarla ötürülən 1,1 min civarında məktub və yazışma ilə tanış ediblər.

Xatırladaq ki, təqribən bir həftə qabaq "The New York Times" Çin kəşfiyyatına bağlı haker qrupunun "Marriott International İnc" hotel qrupunun serverinə daxil olaraq, şəbəkənin bütün dünyadakı hotellərində qalan 500 milyon insanın personal məlumatlarını əldə etmək bacardığından yazmışdı.

Hotelin qonağı olan 327 milyon şəxsin telefon, pasport seriya nömrələri, elektron poçtlarının ünvanları, bir sözlə, hər şey hakerlərin əlinə keçib.

❑ **Musavat.com**

# İnqilablar da bəzi gözəllər kimi uzaqdan daha yaxşı görünür...



**Hüseynbala SƏLİMOV**

**Qonşumuz Gürcüstanda növbəti "qızılgül inqilabı"nın yetişməsi haqqındakı silsilə proqnozlar yumşaq şəkildə desək, doğrulmadı - inqilab olmadı və əksinə, ölkənin yeni prezidenti xüsusi siyasi həyəcanlanmalar və gərginliklər olmadan konstitusion vəzifələrinin icrasına start verdi.**

Düzdür, ötən gün xəbərlər yayıldı ki, müxalif qüvvələr ölkə parlamentinin binasının qarşısına toplaşır, hətta çadırlar qururlar, amma bununla belə nəticələrlə tələsməzdik.

Bilirsinizmi, niyə? Müxalifətçilərin demək olar, əsas tələbi növbədənkənar parlament seçkilərinin keçirilməsidir, bu tələblərdə faktiki olaraq prezident seçkilərilə bağlı heç nə deyilmir, hərçənd, həmin seçkilərin ertəsi günü müxalifət elan etmişdi ki, seçkilər böyük pozuntularla müşayiət olunubdur.

Yox, biz gizlətmirik ki, simpatiyamız daha çox eks-prezident M.Saakaşvilinin başçılıq etdiyi siyasi cinahın yanındadır. Amma bununla belə düşünürük ki, əgər seçkilərdə həqiqətən də çox ciddi pozuntular olsaydı, dərhal zəncirvari etiraz dalğası başlayardı, çünki seçki ərəfəsi mühit çox dinamik, hətta bir az da gərgin idi.

Bəli, hətta sadə seçki hesabı da belə fikrə yönəldir ki, seçkilər müdaxiləsiz ötüşməyibdir və biz onların olmadığını iddia edə bilmərik, amma bunun əksini sübut edən dəlillərimiz də yoxdur.

Fəqət, bizə daha ehtimallı bu, görünür ki, hakim partiya primitiv Asiya üsuluna- bülletenlərin kütləvi şəkildə saxtalaşdırılmasına getmədən daha incə üsula əl atdı, faktiki olaraq seçiciləri satın aldı.

Əgər xatırlayırsınızsa, seçki ərəfəsində hakim partiyanın lideri çox hörmətli B.İvanişvili müəllim presedentsiz bir üsula müraciət etdi və bildirdi ki, o, banklara borcu olan insanların kreditlərini bağlayacaqdır.

Yeri gəlmişkən, burada qeyd edək ki, vəd olunmuş müddət artıq yetişibdir, o səbəbdən ki, İvanişvili müəllim prosesə dekabrın 15-dən sonra başlayacağını bildirmişdi.

Bu amil də özünəməxsus siyasi triqqer rolunu oynaya bilər - İvanişvili sözünün üstündə durmasa, onda seçicilər başa düşəcək ki, onların başını sadəcə, tovlayıblar və bu halda bircə çıxış yolu qalacaq; küçələrə axışıb müxalifətin aksiyalarına qoşulmaq...

Bir sözlə, Gürcüstanda çox kövrək siyasi tarazlıq bərqərar olubdur: birmənalı şəkildə demək ki, qonşu ölkədə növbəti inqilab qəti mümkün deyil, bu, çox böyük şişirtmə olardı. Amma bunun əksini iddia etmək də çox risklidir - axı hamımız bilirik ki, M.Saakaşviliyə və tərəfdarlarına çox təəssüf ki, avatürizm yad deyil və biz buna dəfələrlə əmin olmuşuq...

Nə qədər qəribə olsa da, ən böyük anlaşılmazlıq bundadır ki, ölkədə inqilab üçün ciddi səbəblər yoxdur. Hər halda, bizə belə gəlir, çünki Gürcüstanın xarici siyasət kursu qətiyyən dəyişməyib, ölkə artan templə avro-inteqrasiya yolunda addımlayır və s.

Siyasətin bilavasitə daxili - iç aspektlərinə gəldikdəsə, hətta sadə gürcülər özləri də etiraf edirlər ki, hakimiyyət dəyişəndən, M.Saakaşvili postundan gedəndən sonra ölkədə həyat və siyasi atmosfer daha mülayim olub, insanlar özlərini daha rahat və sakit hiss etməyə başlayıb.

İvanişvili müəllimin komandasının rusiyapərəst siyasət aparacağı haqdakı proqnozlar da doğrulmadı. Yox, bunlar da baş vermədi. Hətta yeni prezident xanım S.Zurabişvili də bildirdi ki, Rusiya ilə münasibətlər o vaxt mülayimləşəcək ki, ölkə beynəlxalq hüququn prinsiplərinə əməl etməyə başlasın.

Düşünürük ki, o, haqlıdır. Hazırda Rusiya siyasətində presedenti olmayan bir tendensiya duyulur: ölkənin coğrafi genişlənməsi az qala, milli ideyaya çevrilib, hər şey yaddan çıxıbdı, Helsinki də, onun Yekun aktı da, BMT və onun nizamnaməsi də...

Tək Gürcüstan, Moldova və ya Ukrayna kimi ölkələrlə deyil, hətta Belarus kimi yaxın müttəfiqlərlə də ciddi problemlər yaşanır. Həmin problemlər haqda bu günlərdə prezident A.Lukaşenko ətraflı danışdı və bildirdi ki, Moskva onun ölkəsini öz quberniyasına çevirmək istəyir.

Odur ki, bir daha qeyd etmək lazım gəlir ki, keçmiş sovet ölkələrində təkcə daxili problemlər deyil, onları əhatə edən geosiyasi fonun özü də müəyyən narahatlıq yaradır və ümumi proseslərə qeyri - müəyyənliklər gətirir. Bu səbəbdən durub demək ki, "məxməri inqilablar" artıq keçmiş sovet ölkələrində tamam istisna olunur - bu, ifrat dərəcədə cəsarətli, hətta çox optimist proqnoz olardı.

Prinsipcə, hər şey ola bilər; Kremlin siyasi kursu qeyri-müəyyən elementlərlə zənginləşdikcə onun yaxın ətrafındakı siyasi prosesləri də izah etmək, xüsusən də proqnozlaşdırmaq çətin olur.

Amma bir tendensiya var ki, o, hər halda, təşviş üçün olmasa da, narahatlıq üçün zəmin yaradır - bu da inqilablara hərislkdir. İstənilən bir ölkənin inkişafı inqilabların sayı ilə deyil, onların keyfiyyəti, kreativliyilə ölçülür.

Ona görə də inqilablar da vərdişə çevriləndə artıq bir az təşviş yaradır, çünki uçurtmaq, dağıtmaq asandır, amma ki, qurmaq, yaratmaq çətindir - inqilablar da bəzi gözəllər kimi kənardan daha yaxşı görünür, yaxından baxanda kosmetika adamı tamam məyus edir...

YENİ MÜSAVAT
N 273 (7162) 20 dekabr 2018



# Tüstüsüz sənaye

**Samir SARI**

**Güzar elə gətirdi ki, "Palmalı" şirkətinin ofisində Türkiyənin şərq əyalətindən gəlmiş bir iş adamıyla həmsöhbət olduq. Şirkətdə adamı, türkün sözü, çox sıcaq qarşıladılar - sanki əsgərlik yoldaşı olublar.**

Əslində Musa bəy bizim dağ rayonlarından Bakıya işləməyə gəlmiş fəhlələrə, konkret olaraq parket yonan ustalara oxşayan bir adam idi. Geyimi-keçimi də sadəydi, danışığı, maneraları da.

Söhbət əsnasında məlum oldu ki, o, hələ Bakıda olmayıb, amma vaxtilə Bakının üstündən keçib, Xəzərin o tayına adlayıb, Türkmənistanla ticarət əlaqələri qurub. Onun köhnə Türkmənbaşı ilə də şəxsi dostluq münasibətləri varmış.

Bir ara yeri gəldi, dəqiqləşdirdim: Musa bəyin Saparmurad Niyazovla İbrahim Tatlısəsin arasında keçən lətifəyəbənzər əhvalatdan xəbəri vardı, güldü, dedi, əvət, öylə bir olay gerçəkdən olmuş.

Söhbətimiz Türkiyənin mövcud iqtisadi durumu istiqamətində irəlilədi, iş adamı öz baxışlarını açıqladı, dedi ki, Türkiyə məcburdur ki, türk respublikaları ilə daha geniş iqtisadi münasibətlər qursun, ticarət əlaqələrini genişləndirsin, belə etsək, sırtımız yerə gəlməz.

İş adamı beləcə də dedi: "Azərbaycan, Türkmənistan, Qazaxıstan, İran, ərəb dövlətləri çox şanslıdırlar, karbohidrogen resursları var, amma Türkiyənin kənd təsərrüfatı və tüstüsüz sənayedən başqa bir şeyi yoxdur, ona görə də biz gərək bu sahələri daha da inkişaf etdirək.

"Tüstüsüz sənaye" - bu ifadə haradansa tanış idi, nə vaxtsa eşitmişdim. Amma Musa bəy yaddaşımı çox qurcalamağa imkan vermədi, "tüstüsüz sənaye" deyərkən nəyi nəzərdə tutduğunu açıqladı.

Bəli, "tüstüsüz sənaye" turizm imiş.

Necə də dəqiq bir ifadədir. Turizm doğrudan da ilboyu xarici valyuta gətirən bir sənayedir, hətta yay mövsümündə öz gəlirliliyinə görə başqa sektorları da üstələyə bilir. Qışın qış vaxtı İstanbulda saysız-hesabsız valyutadəyişmə məntəqələrinə vaxtaşırı girib-çıxanlar, pul dəyişənlər varsa, demək, "tüstüsüz sənaye" işləməkdə davam edir.

Bu heynədə Musa kişi məndən soruşdu ki, bəs "tüstüsüz sənaye"nin durumu sizdə necədir.

Burada qərib kövrəldi, dedim, pis deyil, yavaş-yavaş inkişaf edirik. Bəzi şeylər nitqimə gəldi, amma demədim.

Demədim ki, Musa qardaş, bizdə turizm sektoru o qədər də tüstüsüz deyil, yaşıl rayonlarda yüzlərlə kafe-restoran var, bütün günü kabab tüstülədirlər, onları yeyəndən sonra hesabı ödəyən müştərinin tüstüsü təpəsindən çıxır və çoxu bir daha bu ölkəyə turist kimi gələnin yeddi arxa dönəninə söyüş qoyur, o gedən gedir.

Bunları Musa müəllimə demək olmazdı, çünki qırımından anladım: o, bu yaxınlarda azərbaycanlı dostlarının tövsiyəsi ilə ölkəmizə gələcək və gəlib burada hər şeyi öz gözü ilə görəcək.

İstanbulda isə mövsümü olmasa da, küçələrdə, alış-veriş mərkəzlərində çoxlu turist var. İrandan və ərəb ölkələrindən gələnlər üstünlük təşkil edir. Azərbaycandan da kifayət qədər adama rast olmaq olar. Bir də görürsən ki, düz qulağının dibindən səs gəlir: "Aaz, o atovun əyninə olmaz, bunların ölçüsü fərqli olur"; "Gedək, o biri addelə də baxaq", "Yox, bacı, bizim maqazinlərə baxanda bırda ucuzluqdur" və s.

Dönüb baxırsan ki, azərbaycanlı ana-baladır, cütlüklərdir, ailədir. Bizimkilər belədir: muzeydə itirirsən, gəlib AVM-də taparsan.

Əlbəttə, alış-veriş yaxşı şeydir, "tüstüsüz sənaye"ni ayaqda saxlayır. Əgər bizim ticarət mərkəzləri də bir az insaflı olsalar, 20 dollarlıq ayaqqabını 120 manata satışa qoymasalar, alverləri daha yaxşı gedər. Anadolu türkləri bizim kimi etsələr, bütün sənayeləri od tutub yanar, çox pis tüstülənər, hətta his edər, qurum bağlar. Ancaq onların ağlı kəsir ki, satdıqları malı elə qiymətə versinlər ki, alverləri şıdırğı getsin.

Musa bəy də deyir, sizin ölkənin geniş potensialı var, sağ olun ki, Türkiyədə "Star" zavodu açdınız, bəlkə bu səbəbdən bizdə də yanacağın qiyməti, heç olmasa, sabit qalacaq.

Bəy bunu deyəndə bir anlığa özümü həmin zavodun açılmasına məsul olan şəxslərdən biri saydım, dedim, qardaş qardaşa nə gündə lazımdır, əziz qardaş.

İndi düşünürəm ki, təbiət Türkiyəyə karbohidrogen ehtiyatı verməyibsə də, üç tərəfində "tüstüsüz sənaye"ni inkişaf etdirmək üçün dənizlər, dağlar, vadilər verib. İnsanları da ağıllı, çalışqandırlar, inşallah, özləri demişkən, sırtları yerə gəlməz.

# "Söyüş müxalifəti"nin yenidən aktivləşməsi təsadüfi ola bilməz"

## Aynur Camalqızı: "Onlar prezident seçkilərində edə bilmədiklərini indi etməyə çalışırlar"

**Avropada yaşayan və "söyüş müxalifəti" adlandırılan bir qrup azərbaycanlı sosial şəbəkələrdə yenidən Azərbaycan hakimiyyətinə, eləcə də ayrı-ayrı şəxslərə qarşı hücuma keçib. Ən kəskin təhqirləri yağdırmaqdan belə çəkinmirlər. Maraqlıdır ki, növbəti "söyüş hücumu" ölkədə yaz aylarında növbədənkənar parlament seçkilərinin olacağı barədə xəbərlər yayılandan sonra başlanıb.**

**"Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı "Yeni Müsavat"a bildirir ki, söyüşü siyasi mübarizəyə çevirən və bununla siyasi opponent olacaqlarını zənn edənlərin kimliyinə baxanda əslində hədəfin Azərbaycan dövlətinə zərbə endirmək olduğu aydın olur:** "Baxın, bu "söyüş müxalifəti" nə zaman ortaya çıxdı? Bu il aprelin 11-də Azərbaycanda prezident seçkiləri keçirildi. Hərçənd seçkiərin oktyabrda olacağı gözlənilirdi, lakin bir sıra dövlət əhəmiyyətli tədbirlərin, xüsusilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 iliyinin keçirilməsinə görə seçkinin vaxtı qabağa çəkildi. Və gözlənilmədən, heç bir siyasi və mənəvi əxlaqa sığışmayan, Azərbaycanın siyasi mübarizə metodlarına yad formada söyüş kampaniyası başlandı. Bu ilk olaraq onu göstərdi ki, seçkinin bir neçə ay önə çəkilməsi seçki zamanı Azərbaycana qarşı hücumlara hazırlaşan dairələrin planlarını pozub və onlar tələsik şəkildə "daha təsirli üsul" olaraq söyüş yolunu seçiblər. Bütün bunların Azərbaycan dövlətinə təsiri oldumu? Xeyr. Azərbaycan dövləti güclü dövlətdir və bu cür əxlaqsız üsullarla zərbə alan deyil. Lakin məsələnin mahiyyəti "Niyə söyüş mübarizəsi seçildi" sualını araşdırmağa vadar edir. Burada bir neçə məqam var: Birincisi, bu kampaniyada iştirak edən şəxslərin kimliyidir. Yəni Avropada yaxşı həyat tərzi üçün doğulduğu ölkəni istənilən an satmağa hazır olan bir şəxsin hansı səviyyədə olması bu prosesdə açar rolunu oynayır. Belə şəxslərin mübarizə üsulu təbii ki, əxlaqsız olacaqdı.

İkincisi, Azərbaycan dövlətini hədəfə alan dairələrin vətəni satmış şəxsləri seçərək, niyə məhz söyüş kampaniyası aparmasıdır. Söyüş elə bir şeydir ki, ona qarşı tolerant olmaq çətindir, xüsusilə Azərbaycanın mental dəyərləri baxımından. Görünür, anti-Azərbaycan dairələr bizim mental dəyərlərimizi hesablayaraq belə kampaniya aparırlar. Hədəflərdən biri odur ki, Azərbaycana mental dəyərlərdən uzaq, söyüşlü siyasi mübarizəni gətirsinlər və bununla ölkədə mövcud olan milli-mənəvi dəyərlər sistemini sarsıtmağa cəhd edirlər. Digər hədəf isə söyüş kampaniyası ilə Azərbaycan dövlətini ucuzlaşdırmaq, dəyərdən salmaqdır. Bu kampaniyada əsas hədəfin məhz dövlət başçısı olması da bunu göstərir. Azərbaycan dövlətinin rəhbərliyinə qarşı qəbulolunmaz ifadələr işlədilirsə, bu, Azərbaycan dövlətinin ünvanına səsləndirilmiş ifadələrdir. Çünki prezident ilk növbədə dövlətin başçısıdır, yəni dövlətin bayraq kimi, digər atributlar kimi, simvoludur. Simvollar təhqir olunursa, demək ki, ortada hüquqi dövlətə və dəyərlərinə qarşı aparılan mənəvi terror var. Biz cəmiyyət olaraq məsələnin mahiyyətini anlamalı və bu terrora qarşı birgə dayanmalıyıq".

**A.Camalqızı qeyd etdi ki, bu kampaniyada prezidentin köməkçisi, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun da hədəf seçilməsi yuxarıda açıqladığımız hədəflər fonunda təsadüfi deyil:** "Dünyada siyasi mübarizə təcrübəsi göstərir ki, bir dövlətə qarşı hücum edəndə ilk olaraq onun lideri, ardınca həmin liderin yanında dövlət üçün əhəmiyyətli fiqurlar hədəfə alınır. Əli Həsənov özü bu haqda bildirdi ki, "məqsəd bir tərəfdən təmsil olunduğum çirkin olaylarla əlaqələndirmək, digər tərəfdən isə iqtidarın ideoloji-siyasi və mənəvi-əxlaqi siyasətinin həyata keçirilməsində birbaşa iştirak edən aparıcı məmur kimi şəxsən məni hörmət və nüfuzdan salmaqdır". Hörmətli Əli müəllim haqlıdır, məqsəd onun timsalında Azərbaycan iqtidarını, dolayısı ilə bu gün Azərbaycan dövlətinin mövcudluğunda böyük paya sahib olan komandanı ləkələməkdir. Unutmamalıyıq ki, son nəticədə hədəf yenə də Azərbaycan dövlətidir. Fikir verin, indiyə qədər Azərbaycana qarşı ən müxtəlif vasitələrdən istifadə olunub, lakin ölkədə mövcud iqtidarın sağlam mövqeyi və xalqın dəstəyi bu hücumların qarşısına sədd çəkib. İndi məhz söyüşə əl atılması Azərbaycan dövlətini "qurşaqdan aşağı" vurmaq cəhdidir".

**Həmsöhbətimiz onu da dedi ki, seçki vaxtı ortaya çıxan bu "söyüş müxalifəti"nin indi yenidən aktivləşməsi də təsadüfi ola bilməz. Görünür, onlara Azərbaycan dövlətini ləkələmək üçün aldıqları qrantların qarşılığını seçki vaxtı tam verməyiblər. Digər tərəfdən, bu, Azərbaycana qarşı yeni hücumların başlanğıcı hesab oluna bilər:** "Eyni zamanda mümkündür ki, "söyüş müxalifəti" və onun arxasındakı dairələr növbədənkənar parlament seçkisi xəbərlərinə görə aktivləşiblər. Hərçənd seçkinin olub-olmayacağı dəqiq deyil. Görünür, onlar prezident seçkilərində edə bilmədiklərini indi etməyə çalışır və buna görə də seçkinin olub-olmayacağını dəqiqləşdirmədən, hansısa şayiələrə əsaslanaraq hərəkətə keçiblər. Burada məqsədləri vaxt udmaqdır, yəni nə qədər tez başlasalar, prosesdən bir o qədər "qazanclı" çıxacaqlarını düşünürlər. Bu başlanğıc onu deməyə əsas verir ki, növbədənkənar seçki olarsa, bu dairələrin hücumları daha da çoxalacaq və mümkündür ki, onlar "söyüş leksikonlarını" bir az da genişləndirsinlər.

Fikrimcə, cəmiyyət olaraq bu kampaniyaya qarşı çıxmalıyıq. Çünki məqsəd milli-mənəvi dəyərlərimizi deqradasiyaya uğratmaq və yuxarıda dediyim kimi, Azərbaycan dövlətini dəyərdən salmaqdır. Və unutmamalıyıq ki, bu gün bu terrorun qarşısına çıxmasaq, sonra bütün xalq olaraq hər birimiz belə terrorla üzləşə bilərik".



❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 273 (7162) 20 dekabr 2018



# Əli Həsənovu hədəfə alanlar ifşa edildi - Çexiyadakı mühacir xanımdan şok faktlar

## Mətanət Əzizova: "Vidadi İsgəndərlinin qohumlarının məzarını heç kəs təhqir etməyib"
## Emil Məmmədov: "Videodakı məzarla murdarlanan məzar arasında fərqlər kifayət qədər çoxdur"

**Son günlərdə Avropadakı "söyüş müxalifəti" yenidən aktivləşib. Öz çirkin niyyətlərini həyata keçirmək üçün bu müxalifətin təmsilçiləri bütün əndazələri aşaraq Azərbaycan hökumətinin rəhbərliyindəki bəzi şəxsləri yenidən hədəfə alıblar. Əsas hədəf kimi isə Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov seçilib.**

Çoxsaylı hücum və ittihamlara cavab olaraq Əli Həsənov dekabrın 17-də "söyüş müxalifəti"nin təmsilçiləri, eləcə də hədəf götürülməsinin səbəbləri barədə məqalə ilə çıxış edib. Bu məqalənin ardından Gürcüstanda yaşayan jurnalist Azər Kazımzadə, Almaniyada məskunlaşan Əli Oğuz və Rəfail Piriyev kimi mühacirlər sosial şəbəkələrdə şər-böhtan kampaniyasına daha da güc verərək, ağızlarına gələn statuslar paylaşırlar.


Azər Kazımzadə

Guya adının çəkilməsini istəməyən Göyçaydakı bir müxalifətçi A.Kazımzadəyə Fransada mühacirətdə yaşayan Vidadi İsgəndərlinin atasının məzarının təhqir olunması ilə bağlı məlumat ötürüb, həmin məlumatda qəbrin təhqir olunmasında Ə.Həsənovun rolunun olduğunu iddia edib. Eyni zamanda hər üç mühacir "Sfera.az" saytının baş redaktoru, "Azerbaijan-Azerbaycan" səhifəsinin idarəçisi Emil Məmmədovun məzarı murdarlaması barəsində əllərində faktların olduğunu bildirirlər. Halbuki bu günlər ərzində dəfələrlə edilən


Rəfail Piriyev

təkidlərə baxmayaraq, bir fakt belə ortalığa qoymayıblar.

Onların canfəşanlıqlarının


Əli Oğuz

son günlərdə artması ilə bağlı bir sıra faktlar üzrə çıxıb. Məlum olub ki, Ə.Oğuz və R.Piriyev Almaniyadan oturum almaq üçün yerli hakimiyyət orqanlarından imtina cavabı alıblar və onların digər ölkəyə, həmçinin Azərbaycana deportasiya təhlükəsi var. Eyni zamanda Gürcüstandan Almaniyaya getməyə çalışan A.Kazımzadə buna nail ola bilmir. Bu səbəbdən hər üç mühacirin Azərbaycana yollarını tamam bağlamaq və öz ölkələrində onları ciddi təhlükələrin gözlədiyi barədə görüntü yaratmaq üçün bu cür çirkin oyunlar oynadıqları bildirilir. A.Kazımzadənin guya Göyçaydan adı məlum olmayan birisinin V.İsgəndərlinin atasının qəbrinin təhqir olunmasında Ə.Həsənovun rolunun olduğu barədə məlumat ötürdüyü barədə xəbər yaymasının əslində qurduğu oyunun tərkib hissəsi olduğu vurğulanır.

Açıq şəkildə görünən odur ki, bu və ya bunabənzər insanlar Azərbaycan rəsmilərinin şəxslərinə yönəlik reaksiyaların nail olmaq üçün dəridən-qabıqdan çıxırlar. Arada buna nail də olurlar ki, bundan sığınacaq almaq üçün "yaşıl işıq" kimi istifadə edirlər. Çünki reaksiya verilən kimi dərhal olduqları ölkənin miqrasiya orqanlarına məlumat verirlər, həmin materialları göstərib deyirlər ki, Azərbaycanda bizi təhlükələr gözləyir, biz ora qayıda bilmərik...

Təsadüfi deyil ki, bu metod indiyə qədər dəfələrlə sınaqdan keçirilib. Bu barədə mətbuatda xəbərlər az getməyib. Öz ölkələrinin imicini zərrə qədər düşünməyən belə insanların, sadəcə, bir məqsədləri var, Avropa ölkələrindən siyasi sığınacaq almaq. Bunun üçün hər şeyi etməyə hazırdırlar.

**Hər üç mühacirin şousu ilə bağlı Çexiyada mühacir həyatı yaşayan Mətanət Əzizovanın öz facebook profilində paylaşdığı status diqqəti cəlb edir. V.İsgəndərlinin atasının qəbrinin təhqir olunması il bağlı yayılan saxta məlumatın bəzi mühacirlər tərəfindən tirajlanmasının təsadüf olmadığı həmin statusda göstərilir:** "Almaniyadan sığınacaq ala bilməyən həmvətənlərim saxta məlumatı əllərinə alıb yeni oyuna başladılar. Çox əsəbi halda status, rəylər yazırlar, etirazlarını bildirirlər, özü də bilə-bilə ki, məlumat yalandır. İndidən rəylərdə gic-gic şeylərlə mənə ləkə yaxa bilərsiniz. Ona görə ki, söhbət Vidadi İsgəndərli, Emil Məmmədov və Əli Həsənov haqda yayılmış məlumatdan gedir. Bu mövzu ətrafında siyasi oyun haqda yazacam".

M.Əzizova söz verdiyi kimi


Mətanət Əzizova

bu statusdan saatlar sonra növbəti status paylaşır və A.Kazımzadəni sözün həqiqi mənasında darmadağın edir.

**Həmin statusdan əsas hissələri təqdim edirik:** "Almaniyada yaşayan bir neçə "feysbuqda" aktiv olan qaçqına saxta profildən məlumat gəldi ki, belə bir xəbər var, yayın. Çoxlar bundan imtina etdilər. Ona görə ki, başa düşdülər ki, bu, siyasi oyun ola bilər. Amma Almaniyada yaşayan bir nəfər bu yükü öz üzərinə götürdü. Bu insan haqqında maraqlanın. Almaniyada yaşayan hüquq müdafiəçiləri onun haqqında çox şey bilirlər. Bir neçə gün əvvəl status yazdım ki, "feysbuq"da bəzilərinin profilləri, statusları reket jurnalistlərin KİV-lərdə verilən manşet yazılarına oxşayır. Sonra o statusu sildim. Mən Almaniyadakıları nəzərdə tuturdum. Bir neçə gün ərzində sizə ancaq bir cümlə yazdım ki, Azər, məlumatı yoxlayın, ona görə ki, bu Almaniya qaçqınları sizi zibilə salacaq. Siz mənə yazdınız ki, məlumatı yoxlamısınız. Mən bilirdim ki, cavabınız yalandır. Amma mənim işim sizin yalanınızı tutmaq yox, xəbərdarlıq idi ki, bu oyunbazlara baş qoşmayın və onların sizə ötürdüyü məlumat yalandır, siyasi oyunun növbəti planıdır və sizə göndərilən Vidadi haqqında məlumat oyunbazların məlumatıdır.

Bu olayla bağlı öz fikrimi bildirim. Bu fikirlər məlumat, analiz üzərindən götürülüb. Düşünürəm ki, Vidadi İsgəndərlinin qohumlarının məzarını heç kəs təhqir etməyib. Onu da düşünürəm ki, o məlum video Vidadi tərəfindən hazırlanıb (bu haqda ancaq mən düşünmürəm). Düşünürəm ki, Emil Məmmədovun o məzarı təhqiretmə videosunda əli yoxdur. Emil o videonu daha peşəkarcasına düzəldərdi, onun bilikləri buna imkan verir".










**A.Kazımzadə, Ə.Oğuz və R.Piriyevin şər-böhtanlarına tuş gələn E.Məmmədov məsələ ilə bağlı "Yeni Müsavat"a bunları dedi:** "Son günlərdə bu üç şəxs üzərimə hücuma keçib. Guya bunların əllərində fakt var ki, Vidadi İsgəndərlinin atasının məzarını mən murdarlamışam. Əgər fakt varsa, buyurun təqdim edin. Mən bunlara yazanda məni dərhal bloka atdılar. Albomumdan fotolarımı oğurlayaraq üzərində təhqiramiz ifadələr yazaraq paylaşırlar. Separatçı Azər Kazımzadəni dəfələrlə debata çağırdım, dedim ki, sübutlarını təqdim et. Dərhal məni blok etdi. Mətanət xanım o statusu tam əminliklə yazıb. Ona Almaniyadakı tanışları vasitəsilə məlumat verilib. Əli Oruc və Rəfail Piriyevə Almaniyada oturum verilmədiyi faktı ortadadır. Azər Kazımzadə isə Gürcüstandan Almaniyaya getmək istəyir. Guya Gürcüstanda onun həyatına təhlükə var. Əli Oğuza salam yazmışam. Status yazıb ki, hər an öldürülə bilər. Ardınca da yazır ki, Emil Məmmədov mənə "salam" yazır, Almaniyadakı idmançı şəxslərə məni döydürə bilər. Bu şəxslərin üçü də əlbirdir. 2014-cü ildə Vidadi İsgəndərli ilə problemim olub. Daha çox bunun üçün məni hədəf seçiblər. Məzar söhbətində iddia edir ki, guya dayım uşaqları həbs olunub. Bu tamamilə yalandır. Videoda adıçəkilən şəxsin danışığının, ümumiyyətlə, göyçaylılara debata dəxli yoxdur. Elə bir ləhcə Göyçayda yoxdur. Uydurma bir videodur. Vidadi İsgəndərlinin atasının məzarı ilə bağlı ikinci bir video paylaşıldı. O videodakı məzarla murdarlanan məzar arasında fərqlər kifayət qədər çoxdur. Bir məzarın kənarları dəmirlə, digəri betonla hasarlanıb".




❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 273 (7162) 20 dekabr 2018



# Allahın xoşuna gəlməyən il

Zamin HACI
zaminhaci@gmail.com

**Bizdə iqtisadiyyatın bütün sahələri, həmçinin ticarət yüksək səviyyədə dövlətin himayəsi altındadır, o baxımdan mən Bakıda kiminsə dükanın içinə maşın sürməsi xəbərini görəndə həyəcanlanmışdım. Fikirləşirdim bu adam ya dəli olubdur, ya da müxalifətçilər təzə mübarizə üsuluna keçibdir, indən belə maşını dükana sürəcəklər. Axı xaricdə də etiraz aksiyalarında olur, görürsən mitinqçilər dükan-bazarı dağıtdılar, yandırdılar. Şükür, dünən nigarançılığım aradan qalxdı, sən demə, maşının yiyəsi idman məşqçilərimizdən birisiymiş. İdmana dövlət qayğısı dükanlara dövlət qayğısından az deyil ki, çoxdur. Bəlkə də çox deyil ki, azdır (söz oyunu üçün yazıram, mənası yoxdur, hesab edin oxumadınız). Rəhbərlik elədiyin komanda heç bir uğur qazanmasa belə, sənə dəyib-dolaşan olmayacaqdır. Əksinə, ən hörmətli adamlardan sayılacaqsan. Misal üçün, elə o dükana girən maşının azı 50 min manat qiyməti vardı.**

Əlbəttə, daha baha maşınlar sürən insanlarımız da var, ancaq maraqlıdır ki, biz onları adətən işdən çıxarılandan sonra tanıyırıq. Görürsən xəbər lentində başlıq getdi: "Filankəsin işdən çıxarılan rəis oğlunun bahalı maşınları", "Adam vuran nazir nəvəsinin lüks avtomobilləri", nə bilim, "Sabiq nazirin oğlunun eyni nömrəli, yüksək qiymətli maşınları aşkara çıxdı" və sairə. Bəs bu maşınlar adam vəzifədə olanda niyə görünmürmüş? Yəqin ki, vəzifə maşına gözəgörünməzlik qazandırır. Başqa nə olasıdır? Qanunçuluq şəraitində, bütün vətəndaşların dövlətçiliyə hörmətinin gen-bol olduğu durumda yaşayırıq. Hər bir məmur vaxtında gəlir deklarasiyası verir, dövlət idarələri, hüquq-mühafizə orqanları kimin nəyi var, nə qədər vergi ödəyir, bu tip şeyləri gözəl bilirlər. Ancaq bəzi maşınlar gözəgörünməz düzəldilir, burda nə edə bilərsən? Heç nə. Yalnız adamı işdən çıxartmaq lazımdır ki, sehrli iksir də maşının üstündən yuyulub, buxarlanıb getsin.

Bu arada zəhmətkeşlərimizi qarşıdan gələn Donuz ili, dünya azərbaycanlılarının həmrəylik günü kimi bayramlar münasibətilə təbrik edirəm. Dedim indidən eləyim, birdən sonra yadımdan çıxar, biabır olarıq. Hərçənd mən heç bilmirəm biz Donuz ilinə necə girəcəyik, çünki murdar və Allahın xoşuna gəlməyən heyvandan söhbət gedir. Bunun əti kitabda haram buyurulubdur. (Yəqin bu da xarici qara qüvvələrin, ermənipərəst ünsürlərin işidir, istəyirlər Donuz ilinə girib günaha bataq, axirətdə cəhənnəmdə yanaq. Allah sizə lənət eləsin). Həmişə bu məqamlarda açıqlama verən Şamaxı rəsədxanası, AMEA-dan Əkrəm Həsənov kimi ziyalı alimlər, şeyxin idarəsi də nədənsə susur. Camaat çox narahatdır, hətta bir nəfər Sumqayıtda nəzir qutusundan pulları oğurlayarkən tutulub, tərəfimizdən aşkar edilib götürülmüşdür. Məncə, çıxış yolu odur ki, biz Donuz ilinə girməyək, birbaşa sonrakı il nədirsə, ona girək. Hətta iqtisadi potensialımız imkan verir özümüzün il təqvimimizi düzəldək. Örnək üçün, qoy gələn il Bozqurd ili olsun. Ya da Gəlin ili - trendə uyğun olaraq.

Axı haçana qədər çinlilərin ardınca sürünəcəyik? Üstəlik, proseslər Çin kimi heyvərə dövlətin Azərbaycandan öyrəndiyini göstərir. Dünən orada dissidentlərə, müxalifətçilərə qarşı maraqlı tədbir görüldüyündən xəbər vardı, deyir Çin kommunist rejimi dissidentləri... kurorta göndərir. Sözün əsl mənasında. Hansısa rəsmi tədbir hazırlananda (bizdəki "Eurovision", İslam, Avropa oyunları tipində) dissidentlər gözə görünüb bəzəyi pozmasın deyə hökumət onları bir müddətə Çinin gəzməli, görməli yerlərinə mədəni sürgün edirmiş. Bu zaman bütün xərclər, o cümlədən dissidenti müşayiət edən polislərin xərcləri dövlət tərəfindən ödənirmiş. İçki, mehmanxana, yemək puluna qədər. İndi deyəcəksiniz bizdə belə olsa kef çəkərdik, hamı birdən müxalifət olardı, 13 nömrəli kolonda daş tozu udmaqdan neçə nəfər xəstə düşübdür... Doğrudur, bizdə tam olaraq da belə təcrübə yoxdur. Ancaq yadınıza gəlirsə, 5-6 il qabaq müxalifət hansısa aksiya edəndə polislər onları maşına mindirib Qobustan qoruğuna aparıb buraxırdılar. Düzdür, geri gətirmirdilər, ancaq hər halda, Qobustan dünyada tanınan turizm ərazisidir, ora nə cür getsən savabdır. Bəlkə də elə bizim müxalifəti orada görən hansısa çinli turist bu təcrübə haqda ölkəsinə xəbər vermişdir.

Siz də fikirləşin, Donuz ilinə təzə ad tapsanız yazın. Hələ vaxtımız var.



# Moskvadan təbrik əvəzinə açıq təhdid: Kreml Paşinyanın boğazına çökür

## Rusiya yüksək çinli rəsmisi Ermənistanı ABŞ-la əlaqələrə görə təhdid elədi: "Özünüzdə cəsarət tapın, ya da.."; işğalçı ölkə iki od arasında; yeni hökumətin "qara günləri" başlayır...

**Ermənistanda 9 dekabr parlament seçkilərinin rəsmi nəticələri açıqlandı. Amma Ermənistanın 1 nömrəli hərbi-siyasi müttəfiqi sayılan bir dövlətin rəhbər şəxslərindən - Rusiyadan İrəvanın ünvanına quru təbrik belə gəlmədi. Yada salaq ki, seçkidə qələbə qazanan Nikol Paşinyanı ilk olaraq, ABŞ səfirliyi təbrik etmişdi. Rusiya XİN sözçüsü Mariya Zaxarova isə işarə vurmuşdu ki, təbrik qismində nəsə olacaqsa belə, bu, yalnız nəticələr rəsmən açıqlandıqdan sonra mümkündür.**

Rəsmi nəticələr ortada. Moskvadan isə təbrik gəlmədi. Əvəzində isə İrəvanın ünvanına dünən açıq xəbərdarlıq gəlib. "Yeni Müsavat"ın məlumatına görə, Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin "RİA-Novosti"yə müsahibəsində bildirib ki, "Rusiya Ermənistanın təzə rəhbərliyinin ABŞ tərəfindən təzyiq və şantaja müqavimət göstərmək və müstəqil qərarlar qəbul eləmək üçün özündə cəsarət tapacağına ümid edir".

Qeyd edək ki, bu ilin oktyabrında ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Güney Qafqaz ölkələrində səfərdə olmuşdu. İrəvanda olarkən isə o, Ermənistana "daha keyfiyyətli ABŞ silahları" təklif eləmiş, eyni zamanda Paşinyan hökumətini öz qonşuları ilə münasibətləri normallaşdırmaq üçün Qarabağ məsələsində seçkilərdən sonra konstruktiv mövqe tutmağa səsləmişdi.

Bolton həmçinin İrəvana məsləhət görmüşdü ki, "beynəlxalq münasibətlərdə tarixi klişelərdən yaxa qurtarsın". Söhbət təbii ki, öncəliklə Rusiya asılılığından qurtulmaqdan gedir. Paşinyan isə lazım gələrsə, ABŞ-dan da silah almaq məsələsinin müzakirəsi üçün heç bir məhdudiyyətin olmadığını bildirməklə Moskvada ələvə qıcıq yaratmışdı.

Doğrudur, müdafiə naziri David Tonoyan dərhal düzəliş edərək bildirmişdi ki, "Ermənistanın Amerika silahlarına ehtiyacı yoxdur". Ancaq, necə deyərlər, "qatar" artıq getmişdi. Heç şübhəsiz, Moskva öz satelliti ətrafındakı bütün bu gəlişmələrin fərqindədir. Bunu yüksək çinli rus diplomatının son sözləri də təsdiq edir.

"Ermənistanda bu il baş vermiş radikal dəyişikliklər fonunda Vaşinqtonun onun daxili və xarici işlərinə qarışması getdikcə daha utanmaz şəkil alır", - deyə Karasin hədələyici tonda bildirib. Diplomatın sözlərinə görə, "Bolton İrəvana hökm edib ki, Amerika silahı alsın və bacardıqca tez anti-İran sanksiyalarına qoşulsun". Onun qənaətincə, əgər ABŞ-Ermənistan əlaqələrinin açıq tərəfi belədirsə, gör indi pərdə arasında "qolları necə bururlar".

"Ümid edirik ki, Ermənistanın seçkilərdə lazımi mandat almış indiki rəhbərliyi ABŞ-ın aşkar təzyiq və şantajına sinə gərmək və milli maraqlarla uzlaşan müstəqil qərarlar qəbul eləmək üçün özündə cəsarət tapacaq", - Karasin Kremlin ümumi mövqeyini ifadə edən şantaj ritorikası ilə əlavə edib.

*****

**Qeyd edək ki, bundan iki gün öncə Qriqori Karasinin rəhbəri - Rusiya baş diplomatı Sergey Lavrov etiraf eləmişdi ki, ABŞ Ermənistanda Rusiyadan qat-qat fəaldır, burada daha çox diplomat və QHT-lərlə təmsil olunub. Sitat:** "Rusiya Ermənistanda ABŞ kimi özünə bağlı QHT-lər yaratmağı, yaxud səfirliyinin ştatını artırmağı düşünmür. Amerikalıların öz iş meyarları, bizim isə öz adətlərimiz, maliyyə çərçivələrimiz var. Keçmiş SSRİ məkanında fəaliyyət göstərən bütün bu QHT-lər şəbəkəsi xeyli məsrəf deməkdir. Onların böyük əksəriyyətinin donoru USAİD, yaxud Respublikaçılar Partiyasının nəzarət etdiyi müxtəlif beynəlxalq qurumlardır. Corc Soros da, əlbəttə, böyük fəaliyyət göstərir. Biz diplomatlarla bağlı eyni say çoxluğu ilə cavab verə, yaxud bu qədər oyuncaq təşkilatlar yarada bilmirik".

**S.Lavrov Qərbi inqilablar hazırlamaqda da ittiham etmişdi:** "Hazırda Qərbin postsovet məkandakı işi-gücü inqilab hazırlamaqdır. Bu, bəlkə də bizim bəlamızdır, amma qəti bizim günahımız deyil".

Maraqlıdır ki, bu açıqlamalarla təxminən eyni vaxtda ABŞ-ın guya Bolqarıstan vasitəsilə işğalçı Ermənistanı silah göndərməsi barədə məlumatlar yayılıb. Söhbət kiçik və iri çaplı atıcı silahlardan gedir. Hərçənd acından ölən işğalçı ölkənin dünya bazarı qiymətinə silah almaq imkanları yoxdur. Başqa yandan, belə bir fakt olardısa, Moskva buna dərhal reaksiya verərdi.

"Yeni Müsavat"ın ötən sayında yazıldığı kimi, Rusiya, ümumiyyətlə, Ermənistanın yeni hökumətindən ölkə ərazisində üçüncü dövlətin hərbçilərin mövcudluğunun qadağan edilməsi barədə öhdəlik götürməsinə çalışır. Lavrovun dediklərinə görə, bununla bağlı ikitərəfli anlaşma üzərində iş artıq yekunlaşmaq üzrədir.

*****

Göründüyü kimi, Moskvaya qarşı sərtləşən Qərb sanksiyaları fonunda Ermənistan uğrunda Rusiya-Qərb savaşı güclənib. Ermənistanda inqilab yolu ilə qərbyönlü qüvvələrin iqtidara gəlməsi Kremli daha çevik hərəkət eləmək və ritorikasını sərtləşdirmək zorunda qoyub. Moskva hətta şantaj dilinə keçib. Düşmən ölkə faktiki, indi iki od arasında, "nifaq alması" kimidir.

**"Lavrovun bu açıqlaması Rusiyanın xarici siyasətinin gələcəkdə radikallaşacağına işarədir". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri axar.az-a Rusiyanın postsovet məkanı ölkələrinə təsiri və Qərb təşkilatlarının postsovet məkanında Rusiyadan daha aktiv olması barədə Lavronun sözlərini şərh edən sabiq dövlət müşaviri Qabil Hüseynli deyib.**

**Politoloqa görə, Rusiya Ermənistanla bağlı çox təkəbbürlü mövqe sərgiləyir:** "Çünki Rusiya yaxşı bilir ki, onun Ermənistanda kifayət qədər təsiredici rıçaqı var. Burada hərbi bazası, kifayət qədər formalaşmış kəşfiyyat sistemi var". Ekspert Rusiyanın ABŞ qədər təşkilatlara yardım ayırmaması və siyasi qüvvələrlə işləməməsi fikrinə də münasibət bildirib. O, Lavrovun səsləndirdiyi bu fikrin müəyyən qədər acı etiraf olduğunu söyləyib. Onun sözlərinə görə, Moskvanın hazırkı vəziyyətdə postsovet məkanındakı bütün QHT-lərlə işləməsi üçün yetərli vəsaiti yoxdur: "Rusiya heç öz ölkəsində humanitar fəlakət qarşısında qalan insanları lazımınca təmin etmək iqtidarında deyil".

Ancaq Rusiyanın postsovet ölkələrinə, xüsusən də vassal Ermənistana hərbi vasitələrlə müdaxilə imkanları böyük olaraq qalır...

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Siyavuş Novruzov parlamentdəki çıxışında qəzetimizin adını niyə çəkdi - Rauf Arifoğlunun cavabı

## "Qəzetimizin ünvanına parlamentdə səsləndirdiyi fikirləri 3 gün əvvəl bizim özümüzə demişdi, biz də dərc etmişdik"

**Deputat Siyavuş Novruzov iş adamı, hüquq professoru İlham Rəhimovun ünvanına sərt fikirlər səsləndirib. O, parlamentin plenar iclasında çıxışında qeyd edib ki, həmin şəxs iki gündən bir "Yeni Müsavat" qəzetinə iki səhifəlik müsahibə verir və deputatları ittiham edir:**

"O, Azərbaycan-Rusiya münasibətlərindən danışır, deputatları ittiham edir. Deyir ki, Rusiya ilə əlaqələrin qurulması üçün çoxlu şeylər edib. Biz parlament üzvləri olaraq hər kəsin fəaliyyəti ilə yaxından tanışıq. İki dəfə deputat seçilmək üçün namizədliyini verdi. Heç 3 faiz də səs toplamadı. Bu adam Rusiyada yaşayır. İndiyə kimi Rusiya mətbuatında onun Azərbaycanın problemləri ilə bağlı hansısa yazısını görmüsünüzmü? Özünü cinayət hüququ üzrə professor adlandırır. İndiyə kimi xalqımıza edilən cinayətlərlə bağlı hansısa araşdırmalar aparıb ortaya qoyub ki? Deyir ki, Milli Məclisdəkilər məni tanımırlar. Biz hər kəsi yaxşı tanıyırıq, o cümlədən onu da".



Kənardan belə görünür ki, S.Novruzovun sözügedən çıxışında "Yeni Müsavat"a sətiraltı bir qınaq da var. Əcəba, professor İlham Rəhimovun qınanması prosesinə "Yeni Müsavat" qəzeti də qatılırmı? Ona tribuna verdiyi üçün YAP funksioneri (deputatı) "Yeni Müsavat" qəzetini ittihammı edir?

**Musavat.com S.Novruzovun dediklərinin hansı təəssürat yaratması ilə bağlı "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu ilə danışıb. R.Arifoğlu dedi ki, S.Novruzovun çıxışında ünvanımıza hər hansı bir qınaq və ya ittiham hiss etməyib. Onun fikrincə, S.Novruzov qəzetin nə demək olduğunu yaxşı bilir:** "Düz deyir, bizə müsahibə vermək çox rahat işdir və Azərbaycanın tanınmış bütün simaları bizim platformada çıxış edə bilərlər. O cümlədən də Azərbaycan vətəndaşı, professor İlham Rəhimov (arayış üçün deyim ki, İ. Rəhimovun yaşayış yeri Bakıdır və Rusiyada yaşaması iddiası yanlış məlumatdan qaynaqlanır). Hörmətli Siyavuş bəy də bizim qəzetdə müntəzəm çıxış edir. Sonuncu çıxışı da bir neçə gün əvvəl olub. Professor İlham Rəhimov bizim müxbirlərə verdiyi müsahibəsində Siyavuş Novruzovun ünvanına müəyyən qınaqlar səsləndirmişdi. Bu da deputatın ona cavab vermək haqqını yaratmışdı. Biz dərhal Siyavuş bəydən də fikir aldıq. O da parlamentdə səsləndirdiyi fikirləri daha geniş və daha səlis, üstəlik, ad çəkərək üç gün əvvəl "Yeni Müsavat" qəzetində və musavat.com saytında səsləndirmişdi. Qəzetimizin ünvanına parlamentdə səsləndirdiyi fikirləri də bizim özümüzə söyləmişdi, biz də dərc etmişdik. Bir sözlə, onun qəzetimizin adını çəkməsi bizə qınaq deyil, detaldır".

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# Məmmədyarovun "Ermənistanla anlaşma əldə etdik" bəyanatının səbəbi

## Politoloq: "Gələn il Qarabağ danışıqlarında həlledici mərhələ olacaq"

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov deyib ki, uzun müddətdən sonra ilk dəfə Milanda bir neçə həftə əvvəl Ermənistanın xarici işlər naziri ilə son görüşü zamanı qarşılıqlı anlaşma əldə edə biliblər. O, növbəti ayda Ermənistanın xarici işlər naziri ilə yenidən görüşəcəyinin anonsunu da verib: "Biz Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını müzakirə edəcəyik".**

Bəs söhbət erməni nazirlə növbəti görüş üçün razılaşmadan gedir, yoxsa başqa anlaşmalar da var ki, hələ cəmiyyətə açıqlanmır?

**Politoloq Məhəmməd Əsədullazadə** "Yeni Müsavat"a şərhində bildirdi ki, Ermənistanda yeni qüvvələrin hakimiyyətə gəlişi, Qarabağ münaqişəsinin həllində aparılan danışıqlarda yeni mərhələnin başlanmasına gətirə bilər: "Ermənistandakı Qarabağ klanı 20 il ərzində demək olar ki, danışıqları imitasiya etməklə məşğul olub. Nəticədə 2016-cı ilin aprel döyüşlərində Azərbaycan tərəfindən aldığı sarsıdıcı zərbə ilə siyasi dayaqları zəifləyərək, bir ildən bir az artıq müddətdən sonra devrildi. Təbii ki, bunu Paşinyan iqtidarı yaxşı bilir. Hesab edirəm ki, Paşinyan hakimiyyəti sələfləri kimi eyni ssenarini tətbiq etməyə cəhd etsə, özlərinin siyasi fiaskosuna gətirə bilərlər. Azərbaycan kifayət qədər Paşinyana imkan tanıdı və Paşinyan seçkiləri keçirdi, legitimliyini bərpa etdi. Söz verdiyi kimi danışıqlara başlayıb, münaqişənin həllinə nail olmalıdır".

**Politoloq vurğuladı ki, Milanda birgə razılaşma sənədi sıradan bir sənəd deyil. Rəsmi İrəvan mütləq şəkildə mövqeyini tam ortaya qoymalıdır:** "Ölkəmizdə yüksək səviyyədə qeyd edilir ki, gələn il müəyyən gözləntilər var və siyasi şərait imkan verir ki, Qarabağ münaqişəsi həll edilsin. Milanda ATƏT ölkələri xarici işlər nazirlərinin 25-ci sessiyasında xarici işlər nazirlərinin razılaşdırılmış bəyanatına uyğun olaraq, gələn aydan başlayacaq danışıqlarda Azərbaycanın gözləntiləri var. Bu gözləntilər konkret olaraq real irəliləyişə töhfə verməlidir. Siyasi şərait həqiqətən də münaqişənin həllinə zəmin yaradıb. Ermənistanın xarici işlər naziri Zohrab Mnatsakanyanla Elmar Məmmədyarovun görüşündə danışıqlar birgə razılaşdırılmış sənəd üzrə gedəcək. Bunun detalları açıqlanmasa da, substantiv həll variantını özündə əks etdirməlidir. Azərbaycan digər variantları qəbul etmir. Hesab edirəm ki, İrəvan mərhələli həll üzrə danışıqlardan imtina edərsə, onda münaqişənin həlli istiqamətində heç bir pozitiv addımlar gözləməyə dəyməyəcək. Bu zaman tam bəlli olacaq ki, danışıqların mənası yoxdur. Odur ki, Azərbaycan hələlik konkret gözləntilərlə bu danışıqlara gedir".



**Politoloq onu da qeyd etdi ki, Paşinyan Moskvanın iştirakı olmadan birbaşa Bakı ilə danışıqlar aparılmasına cəhd edir:** "Yanvarda keçiriləcək ilin ilk danışıqları yeni mərhələnin başlanğıcıdır və legitimlik qazanmış Paşinyan iqtidarının sələflərindən fərqli olaraq birgə hazırlanmış, razılaşdırılmış sənədlər üzrə danışıqlar prosesi başlayacaq. Paşinyan siyasi fəaliyyətində daim Ermənistanın uğursuzluğunu Qarabağ konfliktində görüb. İndi tarixi şərait imkan verib ki, Paşinyan iqtidardadır və ölkəsinin inkişafı üçün münaqişəni ədalətli həllinə nail olunsun. O da mümkündür ki, Ermənistan tərəfi kənar təsirlərə duruş gətirə bilməyib danışıqlar xatirinə danışıqlara getsin. Amma Azərbaycan əvvəlki illərdən fərqli olaraq buna getməyəcək. Ona görə də İrəvan bilməlidir ki, Qarabağ klanının uzun illər tutduğu yolu təkrarlamaq istəyəcəklərsə, Qarabağ məsələsi danışıqlardan hərbi varianta keçə bilər. Bu da Paşinyan üçün arzuolunmaz haldır. Bir məsələni qeyd edim ki, digər qüvvələr bu danışıqlarda mümkün razılaşmaları poza bilər. Xüsusilə Rusiyanın mövqeyi maraqlıdır. Hazırda münaqişə ətrafında çox həssas məqam yaranıb. Rusiyanın reaksiyası, sabotajı mümkündür. Bu, Ermənistan daxilində ola bilər. Yanvarda danışıqlarda növbəti raund razılaşdırılacaq. Hər halda, Azərbaycan və Ermənistan rəhbərlərinin ilk görüşü də müzakirə olunacaq. Hazırda Ermənistanda siyasi vəziyyət Qarabağ münaqişəsinin həllindən asılıdır. Üzümüzə gələn il Qarabağ danışıqlarında həlledici mərhələ olacaq".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# Azay Quliyev Milli Platformaya seçimlərdə yol verilən ədalətsizliyi tənqid etdi

**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyev Avropa İttifaqının dəstəklədiyi Vətəndaş Cəmiyyəti Forumunun Milli Platformasına üzv seçimləri ilə bağlı ədalətsiz qaydaya münasibət bildirib.**

Musavat.com-un məlumatına görə, deputat deyib ki, Avropa İttifaqının dəstəklədiyi Vətəndaş Cəmiyyəti Forumunun Milli Platformaya üzv seçimləri üçün tələb olunan 3 səsin 2-ni Brüsselin müəyyən etməsi doğru deyil: "Bu cür qeyri-demokratik və ədalətsiz seçim qaydası dəyişdirilməli, ölkələrə istədikləri namizədi platformaya seçmək imkanı verilməlidir".

**❑ Musavat.com**

YENİ MÜSAVAT
N 273 (7162) 20 dekabr 2018

# Kamal Kılıçdaroğlunun ASALA və FETÖ sevgisi - Azərbaycana xəyanət, terror simpatizanlarına dəstək?

**Türkiyənin ana müxalifət partiyası olan Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğlu dekabrın 17-də Natalya Ayvazyan adlı bloggerlə görüşüb. Görüşün mahiyyəti açıqlanmır. Musavat.com xəbər verir ki, bu barədə Türkiyə KİV-lərində məlumat gedib.**

Natalya Ayvazyanın əslən Türkiyənin Malatya şəhərindən olduğu bildirilir. Yəni o, Türkiyə vətəndaşıdır. Ancaq məsələ bunda deyil. Ondadır ki, bu erməni blogger ASALA erməni terror təşkilatı və FETÖ-nün simpatizanı və qızğın təbliğatçılarından biridir.

Məlumat üçün onu da bildirək ki, özünün paylaşdığı twitlərlə Natalya Ayvazyan ölkə gündəmində qalmağa çalışır. Məsələn, Türkiyə internet resurslarında gedən məlumatlara əsasən, o, əsasən Türkiyənin müxtəlif şəhərləri ilə bağlı arxiv səkilləri paylaşır. Bir sıra internet mənbələri də onun paylaşdığı şəkillərə istinad edir. Bundan başqa o, hökumət əleyhinə və terror təşkilatlarını müdafiə edən twitlər də yazır.

Ayvazyan o sırada ASALA-ya rəğbətini gizlətmir. Bu terror hörgütünü mütəmadi və açıq təbliğ edir. Hətta 1982-ci ildə Türkiyənin Esenboğa hava limanında 9 günahsız insanın ölümü, 72 nəfərin isə yaralanmasına gətirən məlum və müdhiş terror aktının iki təşkilatçısından biri olan erməni Levon Ekməkçini vaxtaşırı yad edir və onu "erməni inqilabçısı" kimi təqdim edir.






Bundan əlavə, 2018-ci ilin noyabrında Almaniyada səfərdə olan Kamal Kılıçdaroğlu Türkiyədə 2013-cü ildəki "Gəzi parkı" etiraz mitinqlərinin əsas təşkilatçısı olmuş Soros Fondunun bir qolu olan Fridrik Ebert Fondunda görüşlər keçirib. Görüşlər çərçivəsində o, Almaniyada PKK/YPG terror təşkilatının qatı tərəfdarları olan Sevim Dağdələn və Helim Evrim Sommərlə bir araya gəlib. Gələn ilin martında keçiriləcək bələdiyyə seçkilərində dəstək istəyib və bu iki şəxs vasitəsilə ilə PKK ilə əlaqə qurub. Həmin iki şəxs Almaniya Federal Məclisində Sol Partiyadan olan millət vəkilləridir.

Beləliklə, qənaət hasil olur ki, qardaş ölkənin ana müxalifət lideri özünün siyasi ambisiyaları naminə terror simpatizanları ilə belə, təmas qurmaqdan çəkinmir. Bunu siyasi mübarizədə məqbul metod sayır. Bununla da o, siyasət adına təkcə Türkiyəyə yox, Azərbaycana da xəyanət edir, ortaq türk maraqlarını belə ayaqaltına qoyur.

Azərbaycanda bu kimi faktlara, əlaqələrə şübhəsiz ki, həmişə xüsusi həssaslıqla yanaşılır, belə faktlar böyük üzüntü ilə qarşılanır. Çünki ərazimizin 20%-i hələ də erməni işğalçı qoşunlarının tapdağı altındadır. Bu işğalda isə ASALA kimi erməni terror birləşmələrinin üzvləri - Livandan, ABŞ-dan gələn terrorçu ermənilər xüsusi fəallıq göstəriblər.

Məsələn, cənab Kamal Kılıçdaroğlunun nəzərinə çatdırırıq ki, onlardan biri Monte Melkonyandır. Monte Melkonyan 1957-ci ildə ABŞ-da anadan olub. 1978-ci-ci ildən Livanda gedən vətəndaş müharibəsində, sağ xristian qüvvələrin tərəfində döyüşüb. Bundan sonra Türkiyə ordusuna qarşı PKK-nın həyata keçirdiyi əməliyyatlarda iştirak edib. 24 sentyabr 1981-ci ildə Melkonyan Parisdəki Türkiyə səfirliyinə hücum təşkil edib. Fransa polisi onu həbs edib. Melkonyanın həbsinə cavab olaraq ASALA bir neçə terror hadisəsi törədib və sonda Fransa hökuməti Melkonyanı Livana deportasiya edib. Lakin bir müddət sonra o, saxta sənədlərlə yenə Fransaya qayıdıb. 1983-cü ildə Parisdəki Orli hava limanında, "Türk Hava Yolları" şirkətinin kassaları qarşısında partlayış təşkil edib. Nəticədə 8 nəfər həlak olub, 55 nəfər yaralanıb. Bir müddət həbsdə qaldıqdan sonra həbs müddəti müəmmalı şəkildə azaldılıb və 1989-cu ildə azadlığa buraxılaraq Fransadan Yəmənə deportasiya edilib. 1990-cu ildə Ermənistana gəlib və Azərbaycanın Dağlıq Qarabağ ərazisinə yollanıb. Xocavənd rayonunun işğalı zamanı Ermənistan ön cəbhə dəstələrinin birinin komandiri olub. Mülki azərbaycanlılara qarşı xüsusi qəddarlıqları ilə seçilib. 12 iyun 1993-cü ildə Mərzilidə gedən döyüşlərdə məhv edilib.

Təkcə bu fakt kifayət etməli idi ki, özünü Azərbaycan sevdalısı kimi təqdim eləməyə çalışan CHP sədri cari partiya maraqları naminə nəinki erməni və PKK terror təşkilatlarının simpatizanları ilə bir araya gəlməsin, əksinə, bu yolu tutanları sərt tənqid və ifşa eləsin. Əfsus ki, Kılıçdaroğlundan xain mövqe görürük...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Avropada yəhudi əleyhdarlığı güclənir - səbəb...

## Əlövsət Əliyev: "Avropada son vaxtlar yəhudilərə qarşı münasibət kəskin şəkildə pisləşməyə başlayıb"

**Fransada noyabrın 17-dən başlayan etirazlar dayanmır. Ölkədə bahalaşma, konkret olaraq dizel yanacağının qiymətlərinin artmasına etiraz olaraq başladılan mitinqlər bir aydan artıqdır davam edir. Baxmayaraq ki, hökumət artıq nəzərdə tutulan qiymət artımını ən azı bir illik ertələyib, ancaq sarı jiletlilərin hökumət qarşısındakı tələbləri və aksiyaları davam edir.**




Doğrudur, Fransa sosial tələblərlə keçirilən aksiyalarla, necə deyələr, xeyli zəngindir, ancaq hökumətin geri çəkilməsindən sonra belə aksiyaların davam etməsi və artıq siyasi şüarlar səsləndirilməsi, bir tərəfdən ümumilikdə Avropadakı ab-havaya təsir edir, digər tərəfdən, müxtəlif nəzəriyyələrin ortaya çıxmasına səbəb olur.

Bu aksiyaların Avropa mərkəzli siyasətin tərəfdarı olan prezident Makrona qarşı kənardan, konkret olaraq ABŞ-dan idarə edilən proses olduğu haqda versiyalar daha əvvəl ortaya atılıb. Eyni zamanda Fransa hökuməti aksiyaların arxasında Rusiyanın dayana biləcəyi şübhələrinin araşdırıldığını açıqlayıb. Əlbəttə, bir çox müşahidəçilər hələ də Fransa sarı jiletlilərinin sosial tələblərlə ortaya çıxan kütlə olduğu fikrini müdafiə edir.

Lakin o da var ki, indi sarı jiletlilərin aksiyaları Fransa sərhədlərini aşaraq bir sıra qonşu ölkələrə yayılıb. İndi isə etirazların fonunda antisemitizm dalğasının yüksəlməsi müşahidə olunur. Aksiyaçıların bəzilərinin əllərində İsrail və yəhudilər əleyhinə şüarlar və yazılar nəzərə çarpır.

Məsələ ondadır ki, Avropada antisemitizmin yüksəlməsi son bir neçə ildə müşahidə olunur. Son Almaniya seçkilərində neonasistlərin partiyasının gözlənilmədən yüksək səs alması, ayrı-ayrı ölkələrdə ifrat sağçıların yüksəlişi müşahidə olunurdu. Bu ilin yayında CNN televiziyasının Avropanın yeddi ölkəsində keçirdiyi sorğunun nəticələri də bunu təsdiq edir.

Avropa ölkələrindən 7 min insanın iştirak etdiyi sorğuda respondentlərin dörddə biri əminliklə bildirib ki, yəhudilər onların ölkələrində maliyyə və biznes sahələrinə hakimdirlər. Hər beş nəfərdən biri isə onların media və siyasətdə söz sahibi olduqları qənaətindədir. Bəzi ölkələrdə antisemitizm meylləri daha güclüdür: Macarıstan əhalisinin 42 faizi hesab edir ki, yəhudilər bütün dünyada biznes və maliyyə sahələrində həlledici təsirə malikdirlər.

CNN-in hesabatında vurğulanır ki, avropalıların 44 faizi antisemitizm dalğasının güclendiyi qənaətindədir, onların daha az hissəsi - cəmi 18 faizi isə bunun səbəbinin yəhudilərin gündəlik davranışı ilə bağlı olduğunu düşünür. "Polşada əhalinin 50 faizi hesab edir ki, yəhudilər öz mövqelərini gücləndirmək üçün Holokost amilindən istifadə edib, macarların isə19 faizi onlarla birgə yaşamaq istəmədiklərini bildiriblər", -deyə hesabatda vurğulanır.

CNN-in hesabatında qeyd edilir ki, İkinci Dünya müharibəsində altı milyondan çox yəhudinin qətlə yetirildiyi Almaniyada antisemist şüarlar səsləndirmək qanunla qadağandır. Buna baxmayaraq, Berlin və digər alman şəhərlərində keçirilən neonasist mitinqlərində yəhudilərin əleyhinə çağırışlar, nasist salamları adi hala çevrilib. Bu ölkəyə 1,4 milyon mühacirin gəlməsi almanların narazılığına səbəb olub, lakin bir çox hallarda neonasistlərin qəzəbi müsəlmanlara yox, yəhudilərə qarşı yönəlir. Son seçkilərdə tərəqqiyə nail olmuş "Almaniya üçün alternativ" Partiyası isə almanları öz keçmişi ilə (yəhudilərin təqibi məsələsində) fəxr etməyə çağırıb.

Telekanalın sorğusunun nəticələrini şərh edən fransalı yəhudilər antisemitizmin yeni təzahürü ilə qarşılaşdıqlarını bildiriblər. Belə ki, Fransada yəhudilərə qarşı əhval-ruhiyyəni yerli əhali deyil, buraya mühacirət etmiş ərəblər qızışdırır.

**Fransa hadisələri və Avropada yüksələn yəhudi düşmənçiliyi mövzusunu "Yeni Müsavat"a şərh edən, hazırda Almaniyada yaşayan hüquq müdafiəçisi Əlövsət Əliyev bildirdi ki, Fransada baş verənlər bu günün hadisəsi deyil. Ə.Əliyevin fikrincə, Avropada baş verənlərin arxasında xarici amil vardır:** "Son illərdə Avropada gəlmələrə və yəhudilərə qarşı nifrət qızışdırılır. Ümumiyyətlə, Qərbdə baş verənlərin altından birmənalı olaraq rus və yəhudi izləri çox aydın görünür. Almaniyada yəhudilərin və rusların çoxlu rusdilli mətbuatı mövcuddur. Eyni zamanda bu mətbuat orqanlarını idarə edənlərdən başqa almanca nəşr olunan mətbuatda da çoxlu yəhudi və rus əsilli insanlar var ki, onların təbliğatını aparır. Birmənalı olaraq rusdilli mətbuat açıq olaraq müsəlman əsilli şəxslərin Avropaya miqrasiyasını pisləyir və bu sahədə davamlı olaraq etnik qarşıdurma yaratmağa çalışırlar. Bu kimi mətbuat orqanlarının əleyhinə fəaliyyət göstərən, belə məlumatları toplamaqla alman hökumətinə və ya Avropanın müvafiq orqanlarına hesabat formasında verməklə bu təbliğatın qarşısının alınması üçün iş demək olar ki, aparılmır".

**Ə.Əliyev deyir ki, alman siyasətçiləri indi ayılıblar və belə açıq çağırış edənlərin qarşısını almaq üçün çalışırlar:** "Hətta bəzi hallarda belə şəxsləri partiyadan kənarlaşdırmaq cəhdləri də mövcuddur. Təəssüflər olsun ki, seçkilərin nəticələri də bunu göstərdi. Yəhudilər elə hesab edirdilər ki, antimiqrasiya adı altında müsəlman əsilli şəxslərin Almaniyaya miqrasiyasının qarşısını almaq mümkün olacaq. Lakin bu kimi təbliğat sonda millətçilərin peyda olmasına, həm də yəhudilərin əleyhinə yönəlmiş bir hala gətirib çıxardı. Avropada son vaxtlar yəhudilərə qarşı münasibət kəskin şəkildə pisləşməyə başlayıb. Avropa ölkələrinin bəzi rəhbərləri İsrailə dəstək versə də xalq kütlələri bu kimi cəhdləri nifrətlə qarşılayır. Antisemitizmin Almaniyada yüksəlişi isə xüsusilə təəccüb doğurur".

**Ə.Əliyev deyir ki, Almaniya hökumətinin antisemitizmə münasibəti birmənalıdır, aydındır. Amma bu, müsbət nəticə üçün çox azdır:** "Yəhudilər hesab edir ki, hökumətlə Almaniya ictimaiyyəti arasında antisemitizmdən dolayı dərin uçurum mövcuddur. Antisemitizmlə bağlı vəziyyət davamlı olaraq araşdırılır. Araşdırmaların nəticələri də bəzən ürəkaçan olmur. Almaniyada ibtidai siniflərdə uşaqlara, "nasist keçmişi olan Almaniyada yəhudilərə olan mənfi münasibət bir daha vüsət almamalıdır" kimi fikir təbliğ olunur və tədris edilir. Bütün bunlara baxmayaraq, müşahidəçilər o fikirdədir ki, Qəzzada baş verənlər ölkədə antisemit əhval-ruhiyyəsini gücləndirib. Artıq Almaniyada bununla bağlı bəzi cinayətlər də qeydə alınıb. Almaniyanın Yəhudi Mərkəzi də bu sahədə ciddi narahatlığın olduğunu bəyan edib. Qeyd olunanlara baxmayaraq, Almaniyanın hüquq-mühafizə orqanları vəziyyətdən narahat deyillər. Hesab edirlər ki, bu sahədə ciddi narahatçılıq yoxdur".

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 273 (7162) 20 dekabr 2018

# Qoca qoyunlar, xəstə inəklər... - dövlətin qiymətli proyekti niyə narazılıq yaradıb

## Nazirlik dövlət adından vətəndaşa heyvan verən şirkətin adını açıqlamağa tələsmir; narazılıq günü-gündən artır...

**Azərbaycanda gerçəkləşdirilən özünüməşğulluq proqramı təqdirəlayiq olsa da, şikayətlər də yox deyil. Əsasən proqram çərçivəsində vətəndaşa dövlətin adından təqdim olunan inəklərin qısır, qoyunların qoca, bəzi hallarda qotur olması haqlı narazılıq yaradır.**




"Yeni Müsavat"ın 19 noyabr tarixli sayında "Məşğulluq Mərkəzinin qoyunlu oyunları - film kimi fırıldaq" sərlövhəli yazıda Goranboyun Əlirzalı kənd sakini Ariz Qnyaz oğlu Dəmirovun şikayətini dərc etmişdik. Vətəndaş ona Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Məşğulluq Mərkəzi tərəfindən verilən qoyunların qoca olmasından şikayətlənmişdi. Demişdi ki, özünüməşğulluq proqramı çərçivəsində ona gecəyarısı təhvil verilən qoyunlar qocadırlar və nazirdən kömək istəmişdi. Ariz Dəmirov dişsiz qoyunların artmayacağını, bu səbəbdən də özünüməşğulluq proqramından onun dolanışığını təmin etməsinin də sual altına düşəcəyini demişdi. Oxşar problem Şəkidə də yaşanır.

İpəkçi.info saytı bu mövzuda "Kasıbları bir az da müflis etməyin yeni yolu: özünüməşğulluq proqramı!" sərlövhəli yazı dərc edib.

Həmin yazıda qeyd olunur ki, 2018-ci il üçün özünüməşğulluq proqramı çərçivəsində respublika üzrə 7 min, Şəki rayonu üzrə isə 113 nəfər 40 saatlıq təlimlərə cəlb ediliblər. Təlimlərə cəlb edilənlər sonda biznes-plan tərtib edərək biznes-planlarını müdafiə ediblər, başqa sözlə, imtahan veriblər...

### Dövlət adından vətəndaşa qısır, süd yanığı, dişsiz, şikəst, qotur heyvan verilməlidir, yoxsa...

**Yazıdan sitat:** "Şəki rayonunda təlimlərə cəlb edilənlərin əksəriyyəti heyvandarlıqla məşğul olmaq fikrində idi. Özünüməşğulluq proqramı çərçivəsində heyvandarlıqla məşğul olmağın şərtləri isə belə olub:

**1.** Dövlət vətəndaşa 4 dana verir, vətəndaş həmin danaları kökəldib satmalıdır, əldə etdiyi pula xərcləri ödəməli, yenidən azı 4 dana almalıdır. Artıq pul qalarsa, şəxsi məqsədləri üçün xərcləyə bilər.

**2.** Dövlət vətəndaşa 2 yanıbalalı inək verir, vətəndaş həmin inəkləri sata bilməz, amma inəyin südünü, inəyin südündən hazırladığı pendiri, yağı, inəklərin balalarını satıb xərcləri ödəməlidir, artıq pul qalsa öz şəxsi məqsədləri üçün xərcləyə bilər.

**3.** Dövlət vətəndaşa 20 toğlu verir, vətəndaş həmin toğluları kökəldib satmalıdır, əldə etdiyi pula xərcləri ödəməli, yenidən azı 20 toğlu almalıdır. Artıq qalan pulu isə şəxsi məqsədləri üçün xərcləyə bilər.

**4.** Dövlət vətəndaşa 20 yanıbalalı qoyun və bir qoç verir, vətəndaş həmin qoyunları və qoçu sata bilməz, amma qoyunların südünü, qoyunların südündən hazırladığı pendiri, qoyunların balalarını satıb xərcləri ödəməlidir, artıq pul qalarsa öz şəxsi məqsədləri üçün xərcləyə bilər.

### Şəkidə vətəndaşlara qısır, yanıq dana və toğlular təklif edilib...

Lakin heyvanların verilməsi zamanı məlum oldu ki, vətəndaşlara qısır və balası olmayan inək və qoyunlar, yanıq dana və toğlular təklif edilib. Bu, aztəminatlı vətəndaşları daha da müflis etməkdən başqa bir şey deyil. Başqa sözlə, vətəndaş 20 qısır qoyunu 2 il yemləmək üçün 4 min manat pul xərcləməlidir. Sonda isə həmin qoyunları yalnız 2 min manata sata bilər. Vətəndaş, deməli, 2 min manat ziyan edəcək.

### "Bunlara yanıq toğlular deyilir"

Bordaq üçün verilən toğlularla bu gün şəxsən tanış olduq, heç kim götürmədi. Bunlara yanıq toğlular deyilir, 10 kq çəkiləri olardı, ya yox, onlar böyümürlər, nə qədər yem, dava-dərmən verilsə belə elə o boyda qalacaqlar. Ən yaxşısının bazar qiyməti 70 manatdan çox deyil. Özünüməşğulluq proqramı çərçivəsində vətəndaşa belə xəstə heyvanlar təklif edilir. 70 manatdan 20 yanıq toğlunun qiyməti 1400 manat edir. Dövlət isə özünüməşğulluq proqramı çərçivəsində hər vətəndaşa 5 min manat vəd etmişdi..."

Saytda Astara rayonunda da eyni problemlərin yaşanması haqda məlumat yer alır:

### Özünüməşğulluq proqramında aldandığını deyənlər

Astara rayonunun Rüdəkənar kənd sakini Ellada İsmayılova özünəməşğulluq proqramına yoxsulluğa son qoyacağı ümidi ilə qoşulub. Ona iki baş inək verilib. O, son ümidinin də puça çıxdığını bildirib.

### "Bizi aldadıblar"

"Atasız uşaq saxlayıram. İqtisadi vəziyyətim yaxşı deyil. İşlə bağlı rayon məşğulluq mərkəzinə müraciət etdim. Heç yerdə işləmirəm. Mənə dedilər ki, özünüməşğulluqla bağlı proqram var. Kurs oxumalısan. Nazirlik sizə mal-qara verəcək. Neçə ay kurs oxudum. Sonra dedilər ki, mal üçün tövlən olmalıdır. Mən 4 min manat kredit götürdüm, mal tövləsi tikdim. Kredit ödəyirəm. Gəldilər iki baş inək verdilər. Dedilər ki, hər ikisinin balası var. Müqavilənin şərtlərinə görə, bizə balası olan inək verilməli idi. Bu inəklərdən biri xəstədir. Əvvəl buna əhəmiyyət vermədik. Fikirləşdik ki, keçər. Bir aydır müalicə edirik. Qulluq edirəm ki, özlərinə gəlsinlər. Gözləyirdik ki, artım olacaq. Test elədilər. Məlum oldu ki, inəklərin heç birisinin balası yoxdur. Bizi aldadıblar".

### "İndi özümü saxlayım, uşağı saxlayım, ya inəkləri?"

**Ellada İsmayılovanın yaşadığı ev Rüdəkənar kəndinin girişində yerləşir. Evin qarşısında olan sahəni göstərib deyir ki, otlaq sahəsi var. Elə bu sahəni nəzərdə tutaraq özünüməşğulluq proqramına qoşulub. Lakin deməsinə görə, "yağışdan çıxıb, yağmura düşüb":** "Fikirləşirdim ki, inəklər süd verər, onun südü ilə vəziyyətimi düzəldərəm. Azyaşlı uşaq saxlayıram. İndi də iki baş inək mənim üstümdə qalıb. Bir aydır kəpək, ot verirəm. Bir aylıq xərcim 50-60 manat tutur. Hamısını da borc edirəm. İndi özümü saxlayım, uşağı saxlayım, ya inəkləri saxlayım?"

### "Nazirin bundan xəbəri yoxdur"

Kənd sakini özünüməşğulluqdan imtina etmək istədiyini deyir: "Mənim ziyanımı ödəsinlər, heç nə istəmirəm. Bu özünüməşğulluq deyil, xalqı aldatmaqdır. Nazirin bundan xəbəri yoxdur. Nazir eşitsə, onları cəzalandıracaq. Mənim ümidim nazirədir. Bu inəklərin balası yoxdur, hələ üstəlik tələb edirlər ki, artım edin".

Ellada İsmayılova deyir ki, üzləşdiyi problemlərlə bağlı ölkə prezidentinə, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və rayon rəhbərliyinə müraciət edib.

### "Müqaviləyə görə mənə 3 baş sağmal inək verməli idilər, amma..."

**Həmin proqramına qoşulan Ərçivan kənd sakini Nəsimi Həsənov da bağlanmış müqavilənin şərtlərinə əməl edilmədiyini söyləyir:** "Müqaviləyə görə mənə 3 baş sağmal inək verməli idilər. Amma 2 baş inək veriblər. Müqavilədə qiymətlər 4800 manat göstərilir. Mənə verilən inəklərin dəyəri isə fikrimcə, 2000 manat edər. Malların yemini yaydan hazırlamışam, özüm tədarük etmişəm. Mənə veriləcək malı çoxdan gözləyirdim".

### "Müqavilədə nəzərdə tutulmuş şərtlərə tam əməl edilmir"

**O deyir ki, hələlik inəklərdən qazanc yoxdur:**

"İnəklərdən biri sağılır, gündə 1,5 litr süd verir. Bunun da satış qiyməti 1 manat 50 qəpikdir. Arıqdır, amma cinsi yaxşıdır. Artım olacaq. Ən azı 2 il gözləməli olacağıq ki, xeyrini görək. Biznes planında tez bir zamanda qazanc götürmək barədə qeydlər var. Ancaq nəzərdə tutulmuş mallar bizə verilmədi. Mən onlara dedim ki, qoy inəkləri özüm axtarıb tapım. Siz alın. Onlar razı olmadılar. Bir qəssabla gəzirdilər. Birinci dəfə arıq mal gətirdilər, qaytardım. Dövlətin bu istiqamətdə verdiyi dəstək təqdirəlayiqdir. Amma müqavilədə nəzərdə tutulmuş şərtlərə tam əməl edilmir. Hələ ki bunun xeyrini yuxarılar görür, biz yox".

### "İnəklərin alınması ilə bağlı aktlarda təchizatçı şirkətin adı yoxdur"

**Sayt yazır ki, özünüməşğulluq proqramına qoşulan işsizlərlə 24 ay müddətinə müqavilə bağlandığı, əmlakın 2 ildən sonra müqavilənin şərtlərinə tam əməl edən şəxslərin mülkiyyətinə verildiyi qeyd olunur:** "Qaydaya görə əmlakı təhvil verərkən bağlanmış akta məşğulluq mərkəzinin, təchizatçı şirkətin nümayəndələri və işsiz şəxs imza atırlar. İnəklərin alınması ilə bağlı aktlarda təchizatçı şirkətin adı yoxdur. Yalnız imza var..."

### "... Qərara alındı ki, daha inandırıcı, kiməsə sübut və fakt lazım olsa..."

**Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin mətbuat katibi Fazil Talıblı deyir ki, vətəndaşa verilən mal-heyvanla bağlı qanunvericilikdə heç bir məbləğdən söhbət getmir:** "Vətəndaş özü istədiyi sahə üzrə təlimdə iştirak edir. Bundan sonra təlimlərdə iştirak edir və biznes planını müdafiə edir. Bundan sonra isə aktivlər-mallar vətəndaşa verilir. Vətəndaş razılığı olduğu təqdirdə aktla razılığını bildirir, imza atır. Bir neçə fakt, süni söz-söhbət yaranmışdı. Bundan sonra qərara alındı ki, daha inandırıcı, kiməsə sübut və fakt lazım olsa, onun videogörüntüsünü də çəkək. Vətəndaş öz razılığı ilə bunu qəbul etdiyini bildirir. Bəlkə həmin saytın hansısa istəyi, marağı var? Hər bir fakt üzrə araşdırma aparırıq. Çox qəribədir ki, vətəndaşlar tərəfindən bizə heç bir şikayət daxil olmur".

### Niyə özünüməşğulluq proqramı bu şəkildə təşkil olunmaqla gözdən salınır?

Vətəndaşlar onlara təqdim olunacaq heyvanların onların iştirakı ilə alınması təklifi ilə çıxış edirlər. Bəs niyə bu praktikadan istifadə olunmur? Narazılıq yaradan, dövlətin büdcəsi hesabına əldə olunaraq vətəndaşa təqdim olunan mal-heyvanı alan kimlərdir? Niyə özünüməşğulluq proqramı bu şəkildə təşkil olunmağa gözdən salınır?

**Fazil Talıblı deyir ki, heyvanın fiziki göstəriciləri, real vəziyyəti vətəndaşı, kəndçini, biznes-plan tərtib etmiş vətəndaşı qane etmirsə, heyvanları qəbul etmir:** "Heyvanlar vətəndaşı qane eləməyincə, vətəndaş aktı imzalamır. Əgər qanunla bu cür baş verirsə, vətəndaş şikayətçi necə ola bilər?"

**Mətbuat katibi qeyd edir ki, vətəndaşların bəzilərinin 2-3 ay sonra heyvanların öldüyünü deyir. Amma heyvanın cəsədini göstərə bilmirlər:** "Harada öldü, harada basdırdın, bir külünü göstər. Axır məlum oldu ki, heyvanı kəsib satıb. Ötən il 1200 ailə özünüməşğulluq proqramından faydalanıb, bu il isə 7300 ailə bu proqramdan faydalanıb. 2-3 nəfər fərdi qaydada müraciət edib. Problemləri həllini tapıb".

**"Vətəndaşa özünüməşğulluq proqramı çərçivəsində təqdim olunan heyvanları kim və haradan alır" sualına mətbuat katibinin cavabı belə oldu:** "Heyvanlar satınalma qanunvericiliyinə uyğun olaraq bu prosesdə, deməli, iştirak edən podratçı şirkət tərəfindən Azərbaycanda satılan heyvan bazarlarından satın alınır. Burada qeyri-adi heç bir şey yoxdur".

### Bəs satınalmada vətəndaşın özünün iştirakının təmin olunması mümkündürmü?

**Fazil Talıblı:** "Vətəndaşa təklif olunanda mal, o, baxır. Dişindən tutmuş quyruğuna qədər baxır. Əgər onu qane etməsə, qəbul etmir. Podratçı şirkət ona digərlərini təklif edir. Hətta anbardan, heyvan bazarından, saxlama məntəqəsindən dəvət edir, vətəndaş onu şirkətin nümayəndəsindən özü seçir və götürür. Ta o vaxta qədər ki, vətəndaş ona razıdır və imza atır".

### Dövlət 1 qoyunun alınması üçün nə qədər pul ayırır?

**Fazil Talıblı:** "Ümumilikdə İşsizlikdən Sığorta Fondundan bu il üçün 35 milyon manat vəsait ayrılıb. Hər saatın, hər vaxtın, bazar iqtisadiyyatıdır, elə gün olur ki, qoyunun qiyməti qalxır, enir. Tarif Şurasından malın qiyməti təsdiqlənməyib ki... konkret bazar qiymətləri ilə tənzimlənir".

Fazil Talıblı işdə olmaması səbəbindən podratçı şirkətin adını deyə bilməyəcəyini də əlavə etdi. Bildirdi ki, bu haqda məlumat verəcək.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 273 (7162) 20 dekabr 2018




# Zindandakı və İrəvandakı mürtəd ermənilər:

# Bakıya yoxsa Haaqaya? - cinayət dosyesi

## Robert Köçəryan və Serj Sərkisyan Ermənistanda deyil, Azərbaycanda və hətta beynəlxalq cinayət məhkəməsində məsuliyyətə cəlb olunmalıdır

**Ermənistanın keçmiş prezidenti Robert Köçəryan hazırda törətdiyi cinayətlərə görə İrəvanda istintaq təcridxanasında saxlanılır. Erməni mediası növbəti hədəfin onun xələfi, yəni 3-cü prezident Serj Sərkisyan olduğunu xəbər edir.**

Lakin vaxtilə Azərbaycan SSR vətəndaşları olmuş, sonradan Dağlıq Qarabağda separatçı hərəkata rəhbərlik edən bu canilər həm də Azərbaycanın hüquq-mühafizə orqanlarının təqibindədirlər.

Ölkəmiz terror fəaliyyətindən tutmuş soyqırıma qədər beynəlxalq cinayət hüququnda nəzərdə tutulan əməlləri törədən bu iki şəxsin və onların əlaltılarının beynəlxalq -hüquqi məsuliyyətə cəlb olunması və Haaqa məhkəməsi önündə cavab verməsi üçün çalışır.

Musavat.com müxtəlif saytlardan və sənədlərdən götürülən materiallara istinadən Robert Köçəryan və Serj Sərkisyanın törətdiyi cinayətləri bir daha yada salır.

1954-cü il avqustun 31-də Xankəndində dünyaya gələn Robert Köçəryan komsomol sıralarında yetişib. O, 1981-1985-ci illərdə Xankəndi (o vaxtkı Stepanakert) Komsomol təşkilatının 2-ci katibi olub. 1986-cı ildə isə Xankəndi ipək fabrikində partiya təşkilatına başçılıq edib. Elə həmin vaxtdan başlayaraq kombinatda çalışan azərbaycanlıları müxtəlif bəhanələrlə bir-birinin ardınca işdən qovulublar. 1988-ci ildə artıq kombinatda azərbaycanlı işçi qalmayıb. R.Köçəryan 1988-ci ildə millətçi "Krunk" təşkilatının fəallarından biri idi və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı yaradılan "Miatsum" təşkilatına rəhbərlik edirdi.

Alınmış məlumata görə, R.Köçəryan Xankəndində komsomol komitəsində işlədiyi müddətdə onun iş otağı həmin vaxtlarda ermənilər tərəfindən "Daşnaksütyun" və "Krunk"un fəal dayaq nöqtəsi kimi istifadə olunurdu. 1988-ci il fevralın 12-də azərbaycanlılara qarşı ilk mitinq məhz Köçəryanın rəhbərliyi altında təşkil edilib. Hadisələrin ilk aylarından Xocalı şəhərinin girəcəyində 4 evin yandırılması və azərbaycanlı ev sakinlərinin bir neçəsinin yaralanması ilə nəticələnən təxribat aksiyası konkret olaraq R.Köçəryan, Serj Sarkisyan, Arkadi Qukasyanın təşkilatçılığı və bilavasitə rəhbərliyi altında törədilib.

R.Köçəryan ipək kombinatında işləyərkən tokar sexini odlu silahlar və partlayıcı maddələr düzəltmək sexinə çevirib və müxtəlif döyüş sursatları hazırladıb. R.Köçəryan həmin dövrdə şəxsən özü odlu silah və döyüş sursatı hazırlayıb.

Dağlıq Qarabağ hadisələri başlayan vaxtdan ermənilər azərbaycanlı müəllim heyətinə hədə-qorxu gəlməklə ərizələrini yazaraq işdən getməyi tələb ediblər. Könüllü iş yerini tərk etməyən müəllimlər isə fiziki işgəncələrə və təqiblərə məruz qalıblar.

R.Köçəryan 1988-1989-cu illərdə qatı millətçi-separatçı fəaliyyətini Xankəndindəki bütün təşkilatlarda ardıcıl surətdə həyata keçirib. Azərbaycanlıların öz doğma əraziləri olan Xankəndi və Qarabağın digər yaşayış məntəqələrindən kütləvi qovulmalarında R.Köçəryan, S.Sərkisyan, A.Qukasyan, Samvel və Karo Babayanların fəal rolu olub.

Köçəryan, Arkadi Qukasyan və Serj Sərkisyanın təşkilatçılığı ilə Xankəndi İpək Kombinatının tokar sexində hazırlanan silahlarla yaraqlanan erməni bandası 1988-ci il fevralın 18-də Xocalıya ilk hücum təşkil edib. Bu basqın nəticəsində Xocalının girəcəyindəki 4 ev qarət olunaraq yandırılıb. Bir neçə dinc əhali odlu silahdan atəş açılması nəticəsində yaralanıb.

Xocalıdan sonra Köçəryan eyni ssenari ilə növbəti qırğını 1988-ci il sentyabrın 16-da Xankəndində törədib. İstintaq materialları və arxiv sənədlərindən, şahid ifadələrindən bəlli olur ki, Sərkisyanın, Qukasyanın, Samvel və Korol Babayan qardaşlarının terrorçu, ekstremist bandasının başında dayanan Köçəryanın təlimatı ilə 1988-ci il sentyabrın 16-da Xankəndində azərbaycanlılara məxsus 50 ev qarət olunaraq yandırılıb.

Sonra bu silahlı erməni bandası tərəfindən qarətçilik, talançılıq hərəkətləri genişləndirilir və irimiqyaslı terror aktları törədilir. Ağdam-Şuşa marşrutunda hərəkət edən avtobusun əvvəlcə daş-qalaq edilməsi, daha sonra atəşə tutulması nəticəsində 25 nəfər mülki vətəndaşın qətli, 1989-cu ildə Ağdamdan Şuşaya uçan "Mİ-8" vertolyotunun vurulması, Malıbəyli kəndində ilk hücumun da Köçəryanın başçılığı altında törədildiyi Azərbaycanın hazırladığı istintaq materialında öz təsdiqini tapır. Bütün bu sadalanan cinayət faktları Köçəryanın, Serj Sərkisyan və bu qəbildən olan erməni millətçi kəsiminin Qarabağda törətdiklərinin başlanğıcıdır.

Müharibə ocağını alovlandıran bu insanların əməlləri nəticəsində 1992-ci il fevralın 26-da Xocalıda törədilən soyqırımdan sonra II Qarabağ müharibəsi başladı.

1992-ci ilin 8 mayında Şuşa şəhəri işğalçı Ermənistanın silahlı qüvvələri tərəfindən zəbt olunan zaman Şuşa avtobazasının həyətində Zirehli Transpartyorun (ZTP-in) üzərində Ermənistan bayrağının dalğalandığı və bayrağın yanında R.Köçəryanın fəxrlə durduğu müşahidə edilib.

Qarabağ canisi 1992-ci ilin avqustundan qondarma rejimin "Müdafiə komitəsinin" sədri və "baş naziri", 1994-cü il noyabrın 24-də isə qondarma "DQR"in "prezidenti" olub. 1997-ci ilin martında isə Köçəryan keçmiş prezident Levon Ter-Petrosyan tərəfindən Ermənistanın baş naziri təyin edilir. Cəmi bir il sonra isə Ter-Petrosyanın yerinə prezident vəzifəsində oturur.

Köçəryan kimi Serj Sərkisyan da Xankəndində anadan olub (30 iyun 1954) və komsomol kökənlidir. S. Sərkisyan 1981-1988-ci illərdə Xankəndi komsomolunda 1-ci katib vəzifəsinə qədər yüksəlib. 1988-ci ildə isə o, Azərbaycan SSR Kommunist Partiyasının Dağlıq Qarabağ Muxtar Vilayət Təşkilatının 1-ci katibi Henrix Poqosyanın köməkçisi olub.

Serj Sərkisyan da 1988-ci ildən Dağlıq Qarabağ ermənilərinin separatçı hərəkatına fəal şəkildə qoşulanlardandır.

Sərkisyan "Krunk" və "Daşnaksütyun"un fəallarından olub. Xankəndində yaşayan ermənilərin silahla təmin edilməsi, azərbaycanlıları daşıyan Ağdam-Şuşa marşrutunda işləyən avtobusların əvvəlcə daş-qalaq edilməsi, sonra odlu silahla atəşə tutulması nəticəsində 25 nəfərin qətlə yetirilməsini, 1989-cu ildə Ağdamdan Şuşaya uçan "Mi-8" vertolyotunun vurulmasını, Malıbəyli kəndinə ilk hücumu, Əsgəran-Ağdam rayonlarının sərhədində iki azərbaycanlının qətlə yetirilməsini konkret olaraq S.Sərkisyan təşkil edib. Həmin dövrdə S.Sərkisyan Ermənistandan odlu silahın və döyüş sursatlarının gətirilməsi və Dağlıq Qarabağda yaşayan ermənilərə paylanılması ilə məşğul olurdu. ("Erməni cinayətləri (sənədlər əsasında)", Milli Təhlükəsizlik Nazirliyi, Bakı, "Vətən", 2004 kitabının materialları əsasında 1905.az)

O, 1992-1993-cü illərdə qondarma rejimin "müdafiə naziri"olub. S.Sərkisyan Şuşa, Laçın, Kəlbəcər və ətraf rayonların işğal olunmasına rəhbərlik edən şəxslərdən biridir. Onun həmin ərazilərdə azərbaycanlıların kütləvi şəkildə qırılmasına başçılıq etməsi müxtəlif sənədlərlə təsdiq olunub.

Serj Sərkisyan bu cinayətləri törətdiyini heç vaxt gizlətməyib və hətta bunu qürurla bəyan edib.

Bu məqam britaniyalı jurnalist Tomas de Vaalın 2000-ci ilin dekabr ayında sabiq Ermənistan prezidenti olan Serj Sərkisyandan götürdüyü müsahibədə daha qabarıq özünü göstərir. Həmin vaxt Ermənistanın müdafiə naziri vəzifəsini icra edən Sərkisyan heç nədən çəkinmədən stenoqramının rus versiyası Karneqi Fondunun saytında yerləşdirilmiş müsahibədə Xocalıda soyqırımı bilərəkdən törətdiklərini etiraf etmişdi.

Beləliklə, Serj Sərkisyan həmin vaxta qədər hətta Azərbaycanda belə təzadlı fikirlərə səbəb olan mübahisələrə son qoymuşdu. O, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilərək 613 nəfər dinc sakinin ölümü ilə nəticələnmiş soyqırımın məsuliyyətini Ermənistan ordusunun üzərinə götürmüşdü: "Bilirsiniz, belə şeylər barədə yüksəkdən danışmırlar. Nə mümkündür, onu danışırlar. Mən də belə davranıram", - deyə bildirmişdi.

**Müsahibədən açıq görünür ki, Oiuaeu nieaugiu ttp://www.khojaly.org.az/nın əsas təşkilatçılarından olan Serj Sərkisyan bu faciədə iştirakını qəhrəmanlıq sayır və bu "qəhrəmanlığını" başqaları ilə bölüşmək istəmir:** "Azərbaycanın keçmiş rəhbəri (Ayaz Mütəllibov - red.) deyir ki, onlar (qatillər - red.) ermənilər yox, azərbaycanlılar olub. Amma mən deyirəm, həqiqət başqa cür ola bilər. İstənilən halda, Xocalı bütün Qarabağı boğaza yığmışdı. Çünki orada aeroport vardı, hava nəqliyyatı bizim Ermənistanla yeganə əlaqəmiz idi. Orada OMON (xüsusi təyinatlı milis dəstəsi - red.) vardı və orada adamları yoxlayırdılar, çox sayda adamı həbs etmişdilər".

Amma Serj Sərkisyan həqiqətin bunda da olmadığını etiraf edir və soyqırımı törətməkdə məqsədlərinin Qarabağın dinc azərbaycanlı sakinləri arasında panika yaymaq olduğunu gizlətməyib:

"Xocalıya qədər azərbaycanlılar düşünürdülər ki, onlar (ermənilər - red.), sadəcə, zarafat edirlər. Azərbaycanlılar bu fikirdə idi ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyən insanlardır. Bütün bu fikirləri dağıtmaq lazım idi".

Bu "xidmətləri" müqabilində Serj Sərkisyan keçmiş prezident Levon ter-Petrosyan tərəfindən 1993-cü il avqustun 21-də Ermənistanın müdafiə naziri təyin edilir.

Serj Sərkisyan Ermənistanda 1995-1996-cı illərdə əvvəlcə dövlət təhlükəsizliyi departamentinin başçısı, daha sonra milli təhlükəsizlik naziri vəzifəsində çalışıb. Növbəti 3 ildə isə Ermənistanın daxili işlər və milli təhlükəsizlik naziri olub. 2000-2007-ci illər arasında yenidən müdafiə naziri işləyib. 4 aprel 2007-ci ildən 19 fevral 2008-ci ilə qədər baş nazir, 19 fevral 2008-ci ildən 2 mart 2018-ci ilədək isə Ermənistan Respublikasının prezidenti olub.

**Ən sonda, bu canilərdən birinin ermənilərin özlərinin başlarına açdığı oyunlara görə tutulması özü də tarixin acı istehzasıdır. Lakin onlardan əsl hesab sorması gərəkən Azərbaycan xalqı, onun dövləti, hüquq-mühafizə orqanlarıdır.**

❑ **Vaqif HÜSEYN,
musavat.com**

YENİ MÜSAVAT
N 273 (7162) 20 dekabr 2018

# "Ərəb baharı"nın 8 ili və 8 anı...

## İnqilab dalğasının təsiri ilə başlamış dəyişikliklərin yaratdığı terror və vətəndaş müharibələri hələ də davam edir...

**"Ərəb baharı" 8 ili arxada qoydu. Bir zamanlar dünyanın böyük ümidlərlə baxdığı, Yaxın Şərqə demokratiya gətirəcəyinə ümid edilən inqilablar dalğası indi artıq demək olar ki, xatırlanmır. Amma bu dalğanın təsiri ilə başlamış dəyişikliklərin yaratdığı terror və vətəndaş müharibələri hələ də davam edir. Suriya, Liviya, Yəmən hələ də qan içindədir...**



Sonradan "ərəb baharı" adlandırılan proses Şimali Afrikanın sakit ölkəsi Tunisdən başladı. O Tunis ki, ilk günlərdə dünya əslində nə baş verdiyini doğru-düzgün qiymətləndirə bilməmişdi. Hadisələr isə ildırım sürəti ilə baş verdi.

2010-cu il dekabrın 18-də Tunisin Sidi Buzid şəhərində küçədə əl arabası ilə satıcılıq edən universitet təhsilli Məhəmməd Buəzizi (1984-cü il təvəllüdlü - K.R.) bələdiyyə məmurlarının arabasını müsadirə etməsinə və işsizliyə etiraz edərək özünü yandırdı. Bu hadisə Tunisdə etirazlara səbəb oldu. İki həftə sonra - yanvarın əvvəlində Buəzizi xəstəxanada ölsə də, etirazlar sengimədi və Tunisdə başlayan kütləvi aksiyalar 2011-ci il yanvarın 14-də 23 il ölkəni fasiləsiz idarə edən Zeynəlabidin bin Əlinin ölkəni tərk edərək Səudiyyə Ərəbistanına qaçması ilə nəticələndi.





Ancaq "ərəb baharı" çox sürətlə davam etdi. İnqilab dalğası başladığı ilk ildə 4 diktatorun - Zeynəlabidin bin Əli (Tunis), Hüsnü Mübarək (Misir), Müəmmar Qəzzafi (Liviya) və Əli Abdullah Salehin (Yəmən) hakimiyyətinin devrilməsi ilə nəticələndi.

Ancaq bu gün inqilab coğrafiyasında başqa "küləklər əsir". Liviya, Yəmən, Suriya, İraq və qismən də Misirdə radikal islamçıların terror təşkilatları fəallıq edir, bölgə demək olar ki, qan gölünə çevrilib.

"Bahar"ın ikinci ünvanı (baxmayaraq ki, kiçik çaplı, yəni dəyişikliyə səbəb olmayan aksiyalar Əlcəzair, Livan, Mərakeş kimi ölkələrdə baş verdi - K.R.) Misir oldu. 2011-ci ilin 25 yanvarında Misirdə hökumət əleyhinə aksiyalar başladı. Tezliklə Qahirənin mərkəzi "Təhrir" (Azadlıq) meydanı milyonluq mitinqlərə səhnə oldu. 1981-ci ildən bu yana 30 ildir Misiri idarə edən Hüsnü Mübarək 18 gün davam edən etirazlardan sonra fevralın 11-də gecə saatlarında istefasını elan etdi. Maraqlıdır ki, Misirdə də Tunisdə olduğu kimi hökumət etirazlara ordu ilə müdaxilə etmədi və ya edə bilmədi. Misir ordusu Mübarəkin devrilməsini seyr etdi. Polis və iqtidar tərəfdarı qeyri-qanuni qüvvələr isə milyonluq aksiyaların qarşısında uzun müddət tab gətirə bilmədi.

İnqilabın üçüncü ölkəsi yenə Şimali Afrikada idi. Liviyada 2011-ci ilin fevralında başlayan etirazlar martda inqilab komitələrinin və silahlı qrupların hökumətlə toqquşmalarına çevrildi. Bunun ardınca NATO aviasiyası və dəniz qüvvələri Liviya ərazilərini bombalamağa başladı. Nəticədə 2011-ci ilin avqustunda paytaxt Trablus ələ keçirildi, oktyabrın 20-də isə 1969-cu ildən bu yana Liviyanı təkbaşına idarə edən polkovnik Müəmmar Qəzzafi NATO bombardmanları nəticəsində yaralandı və yaralı şəkildə üsyançıların əlinə keçərək öldürüldü.

Ancaq Qəzzafinin öldürülməsi, daha sonra da oğlanlarının bəzisinin sağ, bəzisinin ölü ələ keçməsi də Liviyaya sülh gətirmədi. 2012-ci ildə ölkədə seçkilər keçirilib yeni hökumət qurulsa da, artıq necə deyərlər, "cin şüşədən çıxmışdı". 2012-ci ilin sentyabrında Liviyanın ikinci böyük şəhəri Benqazidə silahlılar ABŞ səfiri Kris Stevansı öldürdülər. Bundan sonra genişlənən terror və vətəndaş müharibəsi hələ də davam edir.

"Ərəb baharı"nın digər qanlı ölkəsi isə Ərəbistan yarımadasının cənubunda yerləşən Yəmən oldu. Əli Abdullah Salehin 30 illik avtoritar idarəçiliyi altında olmuş və bölgənin ən qeyri-sabit ölkələrindən biri hesab olunan Yəməndə inqilab 2011-ci ilin yanvarın 26-da başlayıb. Uzun müddət davam edən etirazlardan sonra nəhayət, Əli Abdullah Saleh istefa verməyə razı olub, 2012-ci fevralında vitse-prezident Əbdürrəbbi Mansur Hadi prezident vəzifəsinin icrasına başlayıb. Ancaq inqilabdan sonra da Yəməndə daxili qruplar arasında narazılıq və ən mühümü ölkənin böyük problemlərinin həlli istiqamətində ciddi addımlar atılmayıb, bir sıra şəhərlər "əl-Qaidə"nin Yəmən qolunun nəzarətində qalıb.

2014-cü ilin sentyabrında paytaxt Sənanı ələ keçirən husilərin Ənsarullah hərəkatı digər müttəfiq tayfa və siyasi qruplarla birlikdə yeni hökumət təsis edib. Mansur Hadi isə əvvəlcə cənubdakı Ədən şəhərinə, oradan da Səudiyyə Ərəbistanına qaçıb. 2015-ci ilin 26 martında Səudiyyə Ərəbistanı digər ərəb müttəfiqləri ilə birlikdə Yəmənə hərbi müdaxilə edib. Hazırda bu ölkədə atəşkəs elan olunsa da, sülhdən və sabitlikdən danışmaq tezdir.

"Ərəb baharı"nın ən qanlı səhifəsi isə Suriyada baş verib. 2011-ci il martın 15-də ölkənin cənubunda Dəra şəhərində bir neçə məktəblinin divarlara hökumət əleyhinə şüar yazması ilə başlayan etirazlar tezliklə ölkəyə yayılıb. 2011-ci ilin yayında artıq Suriyada ilk güllələr atılmağa başlayıb. Suriya ordusundan qaçan və Qərb ölkələri tərəfindən dəstəklənən qüvvələr polkovnik Riyad Əsədin rəhbərliyi altında "Azad Suriya Ordusu" yaradılıb. Ancaq tezliklə Suriyada hökumətə qarşı savaşan radikal silahlı dini qruplar fəallaşıb və ölkənin əsas hissəsinə onlar nəzarət ediblər. 2013-cü ildə isə İŞİD yaranıb və Suriyada vətəndaş müharibəsinin gedişatı dəyişib. 2014-cü ildə ABŞ-ın rəhbərliyi ilə 64 ölkədən ibarət anti-İŞİD koalisiyası yaradılıb. 2015-ci ildə isə Rusiya terrora qarşı ümbarizə adı altında Suriyada hərbi əməliyyatlara qoşulub.

Suriya müharibəsində 400 mindən çox insanın öldüyü, on minlərlə insanın yaralandığı, şikəst qaldığı, 5 milyondan artıq insanın isə qaçqın düşdüyü bildirilir. 10 mindən çox uşaq, 10 minə yaxın qadın və ümumilikdə 90 min mülki insan Suriya savaşının qurbanlarıdır. Hazırda savaş davam etdiyi üçün qurbanların sayı da hər keçən gün artır.

2011-ci il fevralın 14-də Bəhreyndə başlayan etirazlar tezliklə hökumət qüvvələri tərəfindən yatırılıb, onlarla insan öldürülüb. Bundan başqa, Bəhreyndəki üsyanı yatırmaq üçün ilk dəfə Səudiyyə Ərəbistanı bu ölkəyə hərbi qüvvə göndərib.

Daha bir kütləvi etiraz dalğası İordaniyada baş verib. Yüksələn etirazların nəticəsində kral Abdullah baş naziri və hökuməti istefaya göndərib, ölkədə islahatlar söz verib. Küveytdə isə etirazlardan sonra kabinetdə dəyişiklik olub, eyni zamanda hökumət parlament seçkilərinə gedəcəyini elan edib.

8 ildən sonra ərəb aləmi böyük travmanı hələ də yaşamaqdadır. İraq, Suriya, Liviya, Yəmən faktiki olaraq xarabalığa çevrilib, müharibənin yaratdığı etnik və dini-məzhəbi nifrət dərin yaralara səbəb olub. Bu yaraların aradan qaldırılması, ölkələrin rifah və sakitliyə qovuşması illər tələb edə bilər. Demokratiya isə artıq çoxlarının yadına düşmür.

Halbuki "ərəb baharı" bir ümidlə başlamışdı. Bunun əsas səbəbi isə etirazların önündə əsasən təhsilli, amma işsizlik və sosial ədalətsizlikdən əziyyət çəkən gənclərin olması idi. Bu səbəbdən də hadisələrin ilk günlərində ərəb ölkələrində proses sürətlə cərəyan edirdi və müəyyən mənada gözlənilməz idi.

Prosesin birinci mərhələsindəki sürətli dəyişikliyin ikinci mühüm məqamı isə Qərb ölkələrinin, o cümlədən bölgənin əsas oyunçu dövlətlərinin baş verənlərə hazırlıqsız yaxalanması idi. Bu mənada böyük ölkələr prosesləri öyrənib qərara verənə qədər ərəb dövlətlərində bir-birinin ardınca çürümüş rejimlər çökürdü.

Ancaq sonrakı mərhələdə proseslər bir növ nəzarətə alındı və Qərb ölkələri baş verənlərə istiqamət verməyə başladılar. Məsələn, Liviyada 42 illik diktator Müəmmar Qəzzafinin devrilməsi üçün NATO üsyançıları silahlandırdı və raket zərbələri ilə dəstək verirdisə, eyni proseslərin baş verdiyi Bəhreyndə "regional faktorlar" nəzərə alınaraq Səudiyyə Ərəbistanının üsyanı boğmaq üçün qoşun göndərməsinə göz yumuldu. Suriyada isə proseslər daha mürəkkəb oldu. Bu ölkədə başlayan daxili savaşa Türkiyə, ərəb ölkələri və Qərbin dəstəyinin qarşısında Rusiya, Çin və İran açıq şəkildə Bəşər Əsədin yanında dayanaraq onu müdafiə elədilər.

Göründüyü kimi, ərəb ölkələrində üsyanlar oxşar olduqları qədər də fərqli xüsusiyyətlərə malikdir. Ancaq bir şey aydındır ki, "bahar" ərəb ölkələrinə rifah və inkişaf gətirmədi, əksinə, Misirdə daha qatı bir diktatura, Yəmən, Liviya, Suriyaya isə öldürücü savaş gətirdi. Yalnız Tunis daxildəki siyasi qüvvələrin səbatlı davranışı, siyasi plüralizmin qorunub saxlanılması bü ölkədə qismən də olsa sabitliyin və istiqrarın qorunub saxlanılmasına səbəb oldu.

**Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 273 (7162) 20 dekabr 2018

# Rüşvətə görə həbs edilən polkovnikə prokuror cəza istəyəcək

## "Pulu alıb maşından düşüb, komitənin binasına daxil olmaq istəyəndə məni əməliyyatçılar saxladı"



**Gömrük Komitəsinin sabiq polkovniki növbəti dəfə hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində rüşvət almaqda ittiham edilərək həbs edilən Natiq İmanovun cinayət işi üzrə məhkəmə iclası keçirilib. Natiq İmanov Dövlət Gömrük Komitəsinin (DKG) Maliyyə və Təchizat İdarəsinin maliyyə şöbəsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı olub.**

Hakim Azad Məcidovun sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqının başa çatdığı elan olunub. Növbəti prosesdə dövlət ittihamçısı çıxış edəcək. Məhkəmə iclası dekabrın 26-da davam etdiriləcək.

**İlk şahid kimi Dövlət Gömrük Komitəsinin Narkotiklər şöbəsinin rəisi Mahir Cəfərov dindirilib. Mahir Cəfərov söyləyib ki, Natiq İmanov saxlanılan zaman komitədə olub.**

"Komitədə idim. Əməliyyat İdarəsinin rəis müavini Rafael Əhmədov xahiş etdi ki, bir işlə bağlı kömək lazımdır. Məndən şahid kimi iştirak etməyimi xahiş etdi. Mən də razılaşdım. Baxış keçirilən zaman Natiq İmanovun üzərində pul var idi. Səhv etmirəmsə 2500 manat idi. O, bunu təsdiqlədi. Sonra olanlardan xəbərim yoxdur" - deyən rəis təqsirləndirilən şəxslə tanışlığının olmadığını, bir neçə dəfə işdə olan zaman koridorda salamlaşdıqlarını söyləyib.

Hakim bildirib ki, şahidin məhkəmədəki ifadəsi ilə istintaqdakı ifadəsi arasında ziddiyyət var. Belə ki, Mahir Cəfərov məhkəmədə bu əməliyyatdan xəbərsiz olduğunu deyib. Amma istintaqdakı ifadəsində əməliyyat barədə əvvəldən xəbərdar olduğunu, rəhbərlikdən məlumat aldığını söyləyib. Mahir Cəfərov bunu dəqiq xatırlamadığını deyib. Amma sonradan istintaqa verdiyi ifadəsini təsdiqlədiyini söyləyib.

Daha sonra məhkəmədə şahid qismində Altun Əlirzayev dindirilib. O, Dövlət Gömrük Komitəsində Daxili Təhlükəsizlik Xidmətinin əməkdaşı olduğunu söyləyib. Bildirib ki, komitənin Əməliyyat İdarəsinin rəis müavini Rafael Əhmədovla birlikdə Natiq İmanova yaxınlaşıb. Bu göstərişi isə rəhbərlikdən alıb.

"Biz Natiq İmanova yaxınlaşdıq. Ondan soruşuldu ki, Mənsur Zeynalovdan pul alıbmı. O, aldığını təsdiqlədi. Sonra da pul aşkar edildi. Bundan sonrasını bilmirəm. Natiq İmanov pulu nə məqsədlə aldığını təsdiqlədi" - deyə şahid bildirib.

Elan olunmuş ittihamla Natiq İmanov özünü təqsirli bilməyib. N.İmanov qurumun maliyyə şöbəsinin rəisi vəzifəsində çalışarkən, hər hansı sənədi imzalamaq, möhür vurmaq səlahiyyətinin olmadığını söyləyib.

**Bildirib ki, iş yoldaşı, rüşvət aldığı iddia edilən Mənsur Zeynalovun dedikləri əsassızdır:** "Mənsur Zeynalovu avqust ayından tanıyıram, iş yoldaşı olmuşuq. Mənsur mənə zəng edib, görüşmək istədiyini dedi. Görüşdə toy edəcəyini, maddi vəziyyətinin yaxşı olmadığını dedi. O, tez bir zamanda birdəfəlik müavinəti almaq istəyirdi. Mən də bildirdim ki, hazırda komitənin balansında pul yoxdur, pul köçürülən kimi onun birdəfəlik müavinəti olan beş min manat məbləğində pul verilə bilər. O isə israr etdi ki, pulu tez alması üçün ona kömək edim. Mən etiraz etdim, əlimdə belə bir səlahiyyətin olmadığını dedim və ayrıldıq. Bir ay sonra yenə zəng elədi. Mənimlə görüşmək istədiyini dedi və mən razılaşdım. Biz iş yerinin qabağında onun avtomobilində görüşdük, o, yenə də israrla bu məsələdə ona kömək etməyimi istədi. Bildirdi ki, alacağı müavinətin yarısı qədər, yəni 2500 manat pul hazırlayıb və bu işi həll etmək istəyir".

**Polkovnik deyib ki, həmin gün də Mənsur Zeynalova bu işi görə bilməyəcəyini deyib:** "Dedim ki, belə bir imkan və səlahiyyətim yoxdur. Sonra Mənsur Qəbələyə yas yerinə gedəcəyini dedi. Buna görə də pulla yola çıxmaq istəmədiyini bildirib, həmin məbləği qayıdanadək saxlamağımı xahiş etdi. Bir iş yoldaşı kimi mən də onun xahişini yerinə yetirdim. Pulu alıb maşından düşüb, komitənin binasına daxil olmaq istəyəndə məni əməliyyatçılar saxladı. Rüşvət aldığım iddia etdilər və üzərimdəki pulları götürdülər. Yenə də deyirəm ki, mən pulu rüşvət kimi qəbul etməmişəm".

Xatırladaq ki, bu işlə bağlı DKG məlumat yayıb. Həmin məlumatda bildirilir, Dövlət Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsi və Daxili Təhlükəsizlik İdarəsi əməkdaşlarının birgə keçirdiyi əməliyyat tədbirləri nəticəsində növbəti dəfə pensiya yaşına çatan gömrük əməkdaşlarından biri ilə 2500 manat pul müqabilində razılığa gələn Natiq İmanov həmin əməkdaşdan pulu alarkən yaxalanıb. DGK sədrinin müvafiq əmrinə əsasən, Maliyyə və Təchizat İdarəsinin Maliyyə şöbəsinin rəisi N.İmanov dərhal tutduğu vəzifədən azad edilib və fakt üzrə toplanmış materiallar hüquqi qiymət verilməsi üçün Baş Prokurorluğa göndərilib.

❑ **İlkin MURADOV,**
**Musavat.com**



# Bakının mərkəzində tam yeni üslubda ilk «Bakcell» konsept mağazası açıldı

**İlin sonuna kimi buradan mobil telefon alan abunəçilərə 2019-cu il boyu pulsuz danışıq və giqabaytlarla pulsuz internet**

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi «Bakcell» şirkəti Bakı mərkəzində, Fəvvarələr meydanında tam yeni üslubda olan konsept mağazasını istifadəyə verib.**

**İnnovativ konsepsiya əsasında dizayn olunmuş bu mağaza özündə nömrə və cihaz satışı ilə yanaşı müştəri xidməti funksiyasını birləşdirir.**

**«Bakcell» özünün üstün xidmətləri və ən sürətli mobil şəbəkəsi ilə çox əlverişli qiymətə yüksək keyfiyyət təklif edir. Biz çalışırıq ki, «Bakcell»in innovativ məhsul və xidmətlərini həm Bakı ərazisində, həm də Azərbaycanın bütün bölgələrində yaşayan abunəçilərimiz üçün daha əlçatan edək. Bu il biz ölkənin müxtəlif regionlarında yeni satış və müştəri xidmətləri mərkəzlərinin açılışını etdik. Bu gün isə Bakının mərkəzində tam yeni konsepsiyaya malik innovativ mağazanı abunəçilərimizə təqdim edirik. Növbəti illər ərzində bu cür mərkəzlərin sayını artıracağıq", deyə «Bakcell» şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.**

**Hacı Zeynalabdin Tağıyev küçəsi 19 (Fəvvarələr Meydanı) ünvanındakı yeni mağazanın açılışı ilə əlaqədar «Bakcell» şirkəti xüsusi kampaniya elan edib.**

**"2018-ci ilin dekabrın sonuna qədər bu mağazadan istənilən model mobil telefon alan hər bir müştəri gələn il pulsuz danışacaq və pulsuz internet əldə edəcək", deyə Nikolai Beckers əlavə edib.**

**Qeyd edək ki, kampaniya şərtlərinə əsasən, ilin sonuna kimi əldə olunan hər bir mobil telefonla bərabər «Bakcell» abunəçilərinə bir illik pulsuz və limitsiz şəbəkədaxili zənglər və hər ay 4 GB internet hədiyyə veriləcək. Abunəçi həmin interneti istifadə etdikdən sonra isə, hər bir giqabaytın qiyməti cəmi 0.25 AZN edəcək. Mağazadan telefon aksesuarları alan müştəriləri də maraqlı hədiyyələr gözləyir.**

**«Bakcell» şirkəti özünün yüksək keyfiyyətli xidmətlərini və ölkədə ən yüksək sürətli mobil şəbəkəni Azərbaycanın bütün bölgələrində yaşayan müştərilərinə təqdim etmək məqsədilə həm mobil rabitə şəbəkəsini, həm də müştəri xidməti və satış şəbəkələrini genişləndirməyə davam edəcək.**

### «Bakcell» haqqında

**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi «Bakcell» şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl 4G/LTE mobil internet xidməti göstərir.**

**«Bakcell» şirkətinin 4G şəbəkəsi artıq bütün Bakı və Abşeron ərazisi daxil olmaqla ölkənin 40-dan çox rayon və şəhər mərkəzlərində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsi təmin edir.**

**7000-dən artıq baza stansiyası vasitəsilə «Bakcell» şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən «Bakcell» şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test"). 2018-ci ildə şirkət "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu mükafat bütün dünyada tanınmış "Ookla" şirkəti tərəfindən "«Bakcell»"ə Azərbaycan Respublikası ərazisində ən sürətli mobil internet xidmətlərinin göstərilməsinə görə təqdim edilib**

**«Bakcell» və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.«Bakcell».com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.«Bakcell».com/az/news (və ya İngilis dili üçün www.«Bakcell».com/en/news) səhifəsinə daxil olun.**

**Qeyri-«Bakcell» abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə "«Bakcell»"in məhsul və xidmətləri haqqında məlumat əldə edə bilərlər.**



# Bakıda 2 yaşlı körpənin əməliyyatı üçün yığılan 20 min manat oğurlandı

**2 yaşlı qızın müalicəsi üçün yığılan pullar oğurlanıb. Hadisə ötən gün paytaxtın Xətai rayonu Gəncə prospekti ev 67, mənzil 21 ünvanında qeydə alınıb. Ev sahibi Könül Məmmədova deyir ki, ötən gün günorta saatlarında evdən çıxıblar. Axşam geri qayıdarkən evlərinin qarət edildiyini görüblər.**

Könül Məmmədovanın sözlərinə görə, iki yaşlı qızı Nərgiz Məmmədova bir neçə vaxtdır ki, əzələ əriməsi xəstəliyindən əziyyət çəkir. Xarici ölkədə müalicəsi olduğundan yaxınları və xeyirsevər insanların köməyi ilə Nərgiz üçün hesab açılaraq pul yığılıb. Zərərçəkmiş deyir ki, uşaq üçün yığılan pullar bank hesabında saxlanılır. Oğurlanan təxminən 20 min manatdan çox məbləğ son bir neçə gündə yığılıb.

Qeyd edək ki, həmin naməlum şəxslər evdən ancaq pul götürüb. Baxmayaraq ki, mənzildə qızıl sırğa və digər zinət əşyaları da olub. Zərərçəkmişlər dərhal ''102'' xidmətinə də məlumat veriblər. Hadisə yerinə gələn 35-ci polis bölməsinin əməkdaşları əl-barmaq izləri götürüblər.

# Ağır çanta, ağır dərs yükü və yorulmuş məktəbli...

## Uşaqlarımızı yükləmədən öncə bunları bilmək lazımdır

**Xəbər verdiyimiz kimi, Milli Məclisin iki gün öncə keçirilən iclasında parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, hakim Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini Siyavuş Novruzov təhsil problemlərindən söz açıb. YAP rəsmisi məktəbli çantalarının ağırlığından şikayətlənib.**

“Uşaq səhər saat 8-dən axşam saat 10-a qədər ancaq təhsil almaqla məşğuldur. Cənubi Koreyada bu, 12-13 saat çəkir. Valideynlər repetitorlar tutur. Elə valideyn var ki, bu gün nəinki repetitor tutur, hətta ”çantadaşıyan" da tutur. Çantaların çəkisi 12 kiloqrama çatır. 2-5-ci siniflərdə oxuyan uşaqlar onu özləri apara bilmirlər", - deyə o qeyd edib.

**Çantanın çəkisi uşağın çəkisinin 14-15 faizini keçməməlidir**

“Yeni Müsavat” dəfələrlə sözügedən mövzuya toxunub. Çünki məktəblilərin dərs yükü, ağır çantaları həllini tapmayan problemlərdəndir. Öncə ondan başlayaq ki, V-VII siniflərdə həftəlik tədris yükü 56 saata qədərdir. Yalnız tədris fəaliyyətinə və onun statistik komponentlərinin öyrənilməsinə məktəblinin sərbəst vaxtının təxminən 68 faizi sərf edilir, yəni əlindən alınır. Bu qədər informasiya yükünün altına girmək isə hər bir yeniyetmə üçün uğurlu nəticə vəd etmir.

Daha bir detal isə bu ağır dərs yükü ilə yanaşı, məktəblilərin çiyninə düşən ağır çanta yüküdür. Mütəxəssislərə görə, çantanın çəkisi uşağın çəkisinin 14-15%-ni keçməməlidir: bu hesabla 8 yaşınadək olan uşaqlar 2 kilo (içindəkilərlə), 8-12 yaşınadək uşaqlar ən çox 4, 12-15 yaş uşaqlar isə 5 kilo ağırlığında çanta götürməlidirlər. İçində heç nə olmayan çantanın çəkisi 700 qramı keçməməlidir. Kürək çantaları hər iki çiyindən asılmalıdır. Çantanı yalnız bir çiyindən asmaq beldə sağa-sola əyilmələrə, yəni skolioz kimi xəstəliklərə (onurğa əyriliyi) səbəb ola bilər.



**İnkişaf etmiş ölkələrdə şagirdlərə evə dərs verilmir**

Kompüter də uşaqların yüklənməsində mühüm vasitələrdən biridir. Normativlərə görə, birinci siniflər kompüterlə 10 dəqiqə, II-V siniflər 15, VI-VII siniflər 20, VIII-IX siniflər 25, X-XI siniflər birinci dəfə 30, müəyyən fasilədən sonra 20 dəqiqə məşğul ola bilərlər. I kursda oxuyanlar bir saat, yuxarı kurs tələbələri 2 saat 15-20 dəqiqəlik fasilələrlə kompüterdən istifadə edə bilərlər. Halbuki indi müasir şagirdlərin kompüter qarşısında keçirdiyi vaxtla normativ arasında ikiqat fərq var.

Dünyanın ən inkişaf etmiş ölkələrində ibtidai sinif uşaqlarına ev tapşırıqları verilmir. Kitablar çox vaxt sinifdə qalır. Kurikulumun tələblərinə görə, keçilən mövzu elə dərs prosesində öyrədilir.

Dünyanın əksər ölkələrində birinci növbədə gənclərin sosial müdafiəsi üçün 12 və ya 13 illik orta təhsil sistemi həyata keçirilir. Məsələn, Böyük Britaniyada təhsil müddəti 10-13 il, Fransa, İspaniya, Polşa, Yaponiya, Litva, Latviya, Estoniya və Moldovada 12 il, İtaliya, İsveçrə, Almaniyada 13 ildir. Ölkələrin yalnız 25 faizində orta təhsil 10-11 illikdir ki, Azərbaycan da bu qrupa daxildir. Tədris illəri artırılsa, mütənasib olaraq hər ilə düşən yük, hər günə düşən saatlar da azalar. Saat az olduqda, təbii ki, çantaya yığılan dərsliklər, iş dəftərləri, dərs vəsaitləri və ləvazimatlar da ixtisara düşər.

**Dərs yükü çox, tətillər ondan da çox...**

Amma məsələnin bir başqa tərəfi də var. Dünyada heç bir ölkə tətil günlərinin sayı məsələsində bizimlə rəqabət edə bilməz. Amerikada tədris ili 180 gündür. Məktəblilərin yay tətili 9-11 həftə çəkir. Milad bayramında 1,5-2 həftə, Şükran Günü bayramında 2-3 gün, Pasxa bayramında isə 2-5 günlük kiçik tətillər olur.

Danimarka, Fransa və İngiltərədə yay tətili 6 həftə olur. Bu ölkələrin ara tətilləri də (rüblük) cəmi 5 gündür. İsveçdə tədris ili iyunun ortasından avqustun ortasınadək davam edir. Milad bayramı ilə bağlı 15 günlük tətil İsveç məktəblilərinin dərs ilini iki hissəyə bölür. Yaponiyada ildə iki böyük tətil - martın sonundan aprelin əvvəlinə və iyulun sonundan avqustun sonuna kimi nəzərdə tutulub. Yay tətili ilin ən uzun tətilidir. 24 dekabrdan 7 yanvara qədərsə ənənəvi qış tətilidir.

Kanadada yay tətili iyul-avqustu əhatə edir. Qış tətili isə cəmi 2 həftə olur. “Marta Break” adını daşıyan yaz tətili isə martın üçüncü bazar ertəsindən başlayıb bir həftə sürür. Almaniyada yay tətili 6 həftədən çox olmur. Pasxa bayramında 2, payızda 1 həftəlik tətil, habelə dekabrın sonundan yanvarın ilk ongünlüyünə qədər davam edən qış tətilindən başqa tətil yoxdur. Norveçdə dərs ili avqustun son həftəsindən başlayır və iyunun ortasına kimi davam edir. Qış tətili və Pasxa bayramı da 1 həftəlik tətillərlə müşayiət olunur.

Azərbaycanda isə il ərzində şagirdlərə 3 ay 15 gün yay, Yeni il və Novruz bayramlarında isə hərəsi 1 həftə olmaqla istirahət verilir. Yəni ildə 4 ay. Bundan başqa, İngiltərədə tədris ili 38 həftə davam edir. Yəni yayda 6, Milad və Pasxa bayramlarında isə 2-3 həftə tətil olur. Orada tətillərin müddəti keçilən dərslərin saatları ilə də mütənasibdir. ABŞ-da səhər saat 8:30-da başlayan dərs 16:00-da qurtarır. İngiltərədə saat 9:00-da başlayan dərs 15:30-da başa çatır.

Azərbaycan orta məktəbi rəqabətə uyğun deyil. Standartlara görə, orta təhsil ən azı 12 il nəzərdə tutulur. ABŞ, Kanada, Fransa, İspaniya, Yaponiya, Polşa, Moldova, Özbəkistan, Ukrayna, Belarus və Gürcüstanda orta təhsil 12 ildir. Almaniya, İsveçrə, İtaliya və Çexiyada 13, Hollandiyada 14 ildir. 12 illik təhsilə keçidin tətillərə təsiri ola bilərdi. Yəni o zaman bol tətillər tətbiq oluna bilər.

Ümumiyyətlə, tətillərlə bağlı yeni “Təhsil haqqında” Qanunda heç nə yazılmayıb. İbtidai, ümumi orta və tam orta təhsildə tətillərin nə qədər nəzərdə tutulması qanunda göstərilməyib. Yeni tətillərin müddəti və sayı qanunla tənzimlənmir. Məsələn, İngiltərədə əsas məqsəd şagirdlərin sərbəst bilik qazanması və onun təcrübədə tətbiqidir. Uşaqlar ən çox kitabxana və laboratoriyalarda məşğul olur, tez-tez yoxlama esseləri və layihələr yazır. Azərbaycan məktəbləri isə sovet dövründə olduğu kimi mərkəzləşmiş qaydada idarə olunur. Tətil günləri və dərsin müddəti vahid mərkəzdən müəyyənləşdirilir.

Ekspertlər hesab edir ki, qəbul imtahanları, şagird biliklərini yoxlama proqramları Azərbaycan məktəblilərinin orta məktəb proqramını mənimsəyə bilmədiyini göstərir. Bu, tətil günlərinin çoxluğu, dərslərin həddən artıq ağır olması ilə bağlı ola bilər. Tətillər o prinsiplə müəyyənləşməlidir ki, uşaqlar tədris olunan fənni mənimsəsinlər. Amma indiki tədqiqatlar göstərir ki, bu sahədə qüsurlar var. Yuxarı sinif şagirdləri kütləvi şəkildə dərsdən yayınır. Azərbaycan təhsilində xaotik bir durum yaranır. Dərslərin 15 sentyabra keçirilməsi ilə əlaqədar 15 gün müddətinin harasa sığışdırılması məsələsi vardı. Dərs ilinin 15 sentyabra keçirilməsi məktəblərimizə yenilik gətirmədi. 1 sentyabr nostaljisini unutmağa gətirib çıxardı. Rasional yanaşsaq, uşaqlar daha çox evlərdə təhsil alırsa, tətillərin sayının azaldılması daha məqsədəuyğundur.

Daha bir detal yay məktəbləri ilə bağlıdır. Belə ki, Qərbdə yay məktəbləri olduğu üçün uşaqlar il boyu mənimsədikləri bilikləri həmin məktəblərdə möhkəmləndirirlər. Ölkəmizdə belə təcrübənin olmaması da uzunmüddətli tətillər zamanı uşaqlarda ətalətin yaranmasına səbəb olur. Necə deyərlər, yay vaxtı məktəblilər yüklənir, yay tətilində isə onların biliyinin təkrarlanması və bu fənni unutmaması üçün heç bir tədbir görülmür.

**İlginc nümunə - Kanada təhsili...**

Müqayisə üçün bir-iki xarici ölkənin orta məktəb təcrübəsini də yada salaq. Məsələn, Kanadada orta təhsil ingilis və ya fransız dillərində aparılır. Ölkədə dövlət, özəl, böyük, kiçik, sərbəst, pansion və ali təhsil müəssisələrinin nəzdində məktəblər fəaliyyət göstərir. İctimaiyyət tərəfindən maliyyələşən məktəblərə də tələbat duyulur.

6 yaşında I sinfə daxil olan uşaqlar məktəbdən, eləcə də əyalətdən asılı olaraq 11 və ya 12 il təhsil alırlar. Yalnız bundan sonra universitetlərə daxil olmaq istəyən abituriyentlər kolleclərdə 2 illik hazırlıq bölməsində oxuyurlar.

Məktəblərdə uşaqlara əsas (riyaziyyat, qrammatika, ədəbiyyat və düzgün yazılış, Kanadanın siyasi strukturunun əsaslarından ibarət fənlər) və təbiət elmlərinə dair (fizika, biologiya və bu qəbildən olan digər fənlər) fənlər qrupu tədris olunur. Qeyd edilən fənlərlə yanaşı, məktəblərdə kompüter vərdişləri, xarici musiqi kimi fənlər də keçirilir. Yuxarı siniflərdə isə qeyd edilən fənlər üzrə biliklərin möhkəmləndirilməsi davam etdirilir.

Eyni zamanda ölkə üzrə geniş yayılmış xüsusi pansion məktəblər də fəaliyyət göstərir. Əcnəbilərin təhsil aldığı belə tədris ocaqları, əsasən katolik məktəblər hesab olunur. Kanadada təxminən 170 dövlət və xüsusi kollec fəaliyyət göstərir. Bunlar regional kolleclərə, texniki institutlara və CEGEP kolleclər sisteminə bölünür.

Üçillik bakalavr proqramları mövcud olan kolleclər hər hansı bir ali təhsil müəssisəsi ilə əməkdaşlıq edir. Son illər eksperiment olaraq üçillik kollecləri bitirmiş məzunlara xüsusi bakalavr dərəcəsi verilir.

Kolleclərdə əsasən informasiya, texnologiya, dizayn, mühasibatlıq, biznesin idarə olunması, mehmanxana və turizm idarəetməsi ixtisasları üzrə mütəxəssislər hazırlanır. Nəzəri biliklər ixtisas üzrə təcrübə məşğələləri ilə vəhdət təşkil edir.

Almaniyada bütün uşaqlar altı yaşından etibarən 9 il ərzində icbari qaydada məktəbə getməlidirlər. Dövlət məktəblərində təhsil pulsuzdur. Adətən uşaqlar 4 il ibtidai məktəbdə oxuyurlar. Sonra onlar müxtəlif növ məktəblərə - əsas məktəb, real məktəb və gimnaziyaya daxil olurlar. Məktəblər şagirdlərin bacarıqlarına olan tələblərə, həmçinin nəzəri və praktik təlim nisbətinə görə bir-birindən fərqlənirlər.

Bundan əlavə, ölkədə birləşmiş məktəblər mövcuddur. Burada bütün növ məktəblərin şagirdləri paralel şəkildə təhsil alır, bir məktəbdən digərinə keçə bilirlər. Əsas məktəbdə V sinifdən X sinfə qədər təhsil icbari, X sinifdə isə könüllüdür. Real məktəbdə şagirdlər V sinifdən X sinfə qədər oxuyur və sonda kamillik attestatı alırlar. Gimnaziyada federal torpaqdan asılı olaraq tədris XII-XIII siniflərə qədər aparılır və kamillik attestatının alınması ilə başa çatır. Bu attestat ali təhsil müəssisəsinə daxil olmaq hüququ verir. Məktəblərin əksəriyyətində dərslər günün birinci yarısında aparılır.

❑ **Sevinc TELMANQIZI,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 273 (7162) 20 dekabr 2018

# Yenidən dirilmək üçün 140 min dollar ödədi

Amerikada yaşayan Dennis Kovalski həyat yoldaşı Mariya və üç uşağı öləndən sonra soyutma otaqlarında dondurulmaq üçün ümumən 140 min dollar ödəyib. “Cryonics” firması gələcəkdə mümkün olacaq tibbi inkişafdan sonra yenidən dirildə bilmək üçün insan bədənini aşağı temperaturda uzun illər boyunca qoruyur. Firma hazırda 160 insan bədəni və 100 ev heyvanını dondurulmuş şəkildə saxlayır. Kovalski ailəsi də bu dünyada ikinci şansları olacağı ümidi ilə bu işə girişib. 140 min dollar qaşılığında firma ölmüş şəxslərin bədənlərini likit azotla mühafizə edəcək.

İnsan ölü olaraq elan edildikdən dərhal sonra prosedur başlanır və bədən ilk olaraq buz qabına qoyulur. Daha sonra cəsəd Miçiqandakı Cryonics İnstitutunun şirkət mərkəzinə daşınır. İnsanın qanının yerinə antifriz məhlulu qoyularaq, buxarlanan bir soyutma otağına yerləşdirilir. Ən sonunda bədən gələcəkdə oyandırılmaq ümidi ilə özəl bir saxlama qabına qoyulur.

Bu prosedurun təxmini maliyyəsi 28 min dollardır. Şirkət iddia edir ki, gəlir məqsədi güdmür, ödənən maliyyə qarşılığında bədəni saxlamaq funksiyasını icra edir. Bir çox mütəxəssis isə bu bədənlərin həyata qaytarıla biləcəyinə dair ümid olmadığını deyir. Dennis Kovalski isə bu prosedur üçün “İtirəcək şey çox azdır. Amma qazanılacaq olan çoxdur” deyir. Proqrama yazılan insanların sayı isə 2 min nəfərdir.

# İtə öncə narkoz verdilər, sonra oğurladılar



İstanbulda Tevfik C. adlı anestezioloq qonşusunun itinə öncə narkoz iynəsi vurub, sonra da onu qaçırıb. Meşəlik əraziyə atılan it təxminən bir ay sonra tapılıb. İtin sahibi olan Güzelhan ailəsi isə 1 ay öncə binanın həyətində saxladıqları heyvanın itməsindən şübhələnib, binanın təhlükəsizlik kameralarına baxıblar. Görüntülərdə anestezioloq qonşunun itə iynə vurub bayıltması, ardınca isə maşının baqajına qoyması öz əksini tapıb. Hadisədən bir ay sonra it tapılıb. Məlum olub ki, qonşuları itin davamlı hürməsindən narahat olduğu və yuxusuz qaldığı üçün bunu edib: “Qonşum dedi ki, digər itlərə də iynə vurub azdırmağı planlaşdırsa da, bizimkindən başqa hamısı qaçıb”. İtin sahibləri qonşuları barədə polisə şikayət veriblər.

# Bir qadın hayatı boyu geyimə 125.000 dollar xərcləyir

“Daily Mail”in araşdırmasına görə, qadınlar həyatları boyu geyimə 125.000 dollar xərcləyir. Buraya çanta, papaq kimi aksesuarlar da daxildir. Qadınların 10%-i hər həftə yeni bir şey aldıqlarını etiraf edir. Amerikalı telejurnalist, müğənni və kitab yazarı Tammi Faye Bakker bir dəfə “Alış-veriş etməyə üstünlük verirəm, çünki terapevtdən daha ucuza başa gəlir” demişdi. 125.000 dollar xərcləməsindən daha çaşdırıcı gələn məqam isə eyni araşdırmaya qatılan qadınların 60%-i hər səhər nə geyəcəklərinə qərar verə bilmədiklərini və qarderoblarının onlara kafi gəlməsini söyləməsi olub.

Estetik əməliyyatlar da qadınların çoxlu pul xərclədiyi bir sahədir. Nəhəng sektor halına gələn estetik əməliyyatlara həvəs göstərən qadınların yaş qrupu 19-40 yaş arasında dəyişir. Ən çox edilən əməliyyat isə sinə böyütmə əməliyyatıdır. Daha sonra burun əməliyyatı və arıqlamaq prosedurları gəlir. Siyahının davamını isə üz dartdırma əməliyyatı izləyir.





# Xərçəngin səbəblərindən biri də diş əti problemidir

İsveç Tibbi Tədqiqatlar İnstitutunun mütəxəssisləri müəyyən ediblər ki, diş əti problemləri orqanizmdə onkologiyanın formalaşması amilləri ilə sıx bağlıdır. Alimlər diş ətini zəifləmiş insan orqanizmində bədxassəli şişin sürətlə inkişafının əsas səbəblərindən biri adlandırıblar. Tədbir görülməzsə, orqanlarda bədxassəli xərçəngin sürətlə inkişafını dayandırmaq mümkün olmayacaq.

Ekspertlər diş əti xəstəliklərindən əziyyət çəkən insanlara müraciət edərək, onları dərhal regional stomatoloji kabinetlərə müraciət etməyə çağırıblar. Diş ətinin hətta azacıq ağrıması, zəifləməsi və qanaması orqanizmdə onkologiya əlamətlərindən birinin formalaşmasının səbəbi ola bilər.




QOÇ - Hansısa məqsədlərinizi reallaşdırmağa tələsməyin. Çünki ixtiyarınızda olan bu təqvim aktiv deyil. Yaxşı olar ki, düşüncələrinizi ilahi qanunlar əsasında tənzimləyəsiniz.

BUĞA - Axşam saatlarına qədər Ay bürcünüzdə olduğu üçün davranış və ünsiyyətinizdə sabitliyi qoruyun. Hər hansı riskli addımlara da yol verməyin. Axşama doğru ürəyinizə yaxın adamlarla bir araya gəlin.

ƏKİZLƏR - Ümumi mənzərə ürəyinizcə olacaq. Ələlxüsus da günün birinci yarısında iştirakçısı olduğunuz proseslərdən məmnun qalacaqsınız. Amma imkan varsa, uzaq yola çıxmaqdan vaz keçin.

XƏRÇƏNG - Özünüzə qapılmağa son qoyun. Çünki indi aktivlik məqamıdır. Göylərə, ulduzlara bel bağlamaqdansa reallığı nəzərə alıb konkret addımlar atın. Sadəlövh olmağın yeri deyil.

ŞİR - Əgər vacib bir işiniz çıxmazsa, vaxtınızı daha çox oturaq şəraitdə, lap elə evdə keçirin. Çünki bu gün sizin üçün passiv gündür. Ulduzların düzümü yalnız saat 16-18 aralığını uğurlu sayır.

QIZ - Bu günün sizə mənfi təsir edəcəyi gözləniləndir. Odur ki, fəaliyyətdə və qarşılıqlı münasibətlərdə obyektivliyinizi qorumağa çalışın. Yaxşı olar ki, axşamı öz evinizdə keçirəsiniz.

TƏRƏZİ - Günün ilk yarısını daha çox istirahətə həsr edin. Həmin ərəfədə evdə təmir-tikinti işləri ilə məşğul olmaq səmərəlidir. Sonrakı müddətdə isə planların icrasına başlamaq olar.

ƏQRƏB - Ümumi süstlüyünüzü nəzərə alıb daha çox istirahətə yer ayırın. Qəlbinizə yaxın insanlarla görüşməyiniz rahatlığınızı artıracaq. Maliyyə sahəsində də uğurlarınız mümkündür.

OXATAN - Əgər gün ərzində səhhətinizi nəzarətdə saxlaya bilsəniz, hansısa digər probleminiz üzə çıxmayacaq. Saat 14-17 arası maraqlı və gələcəyinizdə rol oynaya bilən adamlarla rastlaşacaqsınız.

OĞLAQ - Yaxşı olar ki, bütün məsələlərdə daxili sabitliyinizi qoruyasınız. İnsanlarla münasibətdə neytral olmağa çalışın. Onsuz da ətrafınızdakılar bu gün sizi tam anlamayacaqlar.

SUTÖKƏN - Qarşınızda sevinc dolu bir təqvim durur. Ulduzlar zamanın bütünlüklə xeyrinizə işləyəcəyindən xəbər verir. Bu səbəbdən də aktivliyinizi artırmalısınız. Maraqlı görüşlər də mümkündür.

BALIQLAR - İşgüzar sövdələşmələrə başlamağa dəyər. Amma bu planınızı nahardan sonraya saxlamayın. Əks təqdirdə razılığa gələ bilməyəcəksiniz. Ulduzlar pəhriz saxlamağı məsləhət görür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Yataraq bədən enerjisini verir və pul qazanırlar



“The Next Web”in xəbərinə görə, hollandiyalı bir şəxs IoHO adlı bir sistemlə bədən istiliyindən əldə etdiyi enerjini Bitcoin istehsalında istifadə edir. Hazırda 337 nəfərin termostatik enerjisindən elektrik istehsal edilir. Bu günə qədər insanlardan 127 bin 210 milivaltlıq elektrik əldə edilib. Bu enerji ilə 16 min 954 coin əldə edilib.

Sözügedən koinlərdən əldə edilən gəlirin yüzdə 80 faizi yataraq bədən enerjisini verənlərə təqdim olunur. IoHO’nun qurucusu Manuel Beltran isə deyib ki, bu layihə ilə yeni bir axına başlamaq istəyir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100